10 iyul 2024 №51 (2116)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qarabağ Bəyannaməsi ilə möhkəmlənən Türk birliyi

### “Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən zirvə görüşü rəmzi məna daşıyır”

Xəbər verdiyimiz kimi, iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.

Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.



Prezident İlham Əliyev iştirakçıları salamlayıb və TDT-nin ildə bir dəfə qeyri-rəsmi sammitinin keçirilməsi ilə bağlı ölkəmizin təşəbbüsünü dəstəkləyərək Şuşa şəhərinə gəldiklərinə görə onlara təşəkkür edib.

Prezident vurğulayıb ki, türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və TDT-nin gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərib.

#### TDT dünya miqyasında güc mərkəzinə çevrilməlidir

Dövlətimizin başçısı qeyd edib ki, TDT dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir: “Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır”.

2023-cü il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu zirvə görüşünün rəmzi məna daşıdığını deyən İlham Əliyev bildirib ki, Qarabağın tacı Şuşa şəhəri həmişə Azərbaycanın və regionun mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub.

Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayıb, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşayıb və buna nail olub.

Diqqətə çatdırılıb ki, 2021-ci ildə Şuşa şəhəri “Azərbaycanın mədəniyyət paytaxtı” elan olunub. Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşanın təməlinin qoyulmasının 270-ci ildönümü ilə əlaqədar 2022-ci il Azərbaycanda “Şuşa İli” elan edilib. TÜRKSOY tərəfindən Şuşa şəhəri 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı”, ICESCO tərəfindən isə 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunub.

davamı səh. 2-də

## “İsa bulağı”nın yeni növrağı



Şuşa şəhərindən dörd kilometr aralıda, dəniz səviyyəsindən təqribən 1300 metr hündürlükdə meşəlik ərazidə yerləşən İsa bulağı Azərbaycanın, o cümlədən Qarabağın ən məşhur istirahət yerlərindən biri hesab olunur. Bulaq Azərbaycan təbiətinin nadir incilərindən sayılır. Yerli əhalinin bu hidronim haqqında məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə aşkar etmiş İsa adlı əkinçinin adını daşıyır.

Vətən müharibəsindən sonra İsa bulağı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən bərpa edilib. Bulağın özü mərmərdən hazırlanıb, “İsa bulağı” sözləri isə milli ornamentlə yazılıb və bulağın su təminatı da tam bərpa olunub. Bulağın ətrafındakı istirahət mərkəzi və restoran milli üslubda təmir edilib, ərazidə abadlıq işləri aparılıb.

Prezident İlham Əliyev iyulun 5-də Şuşada “İsa bulağı” istirahət kompleksinin açılışında iştirak edib.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verib. Bildirilib ki, istirahət kompleksində 4 qonaq evi və bir restoran yerləşir.

Şuşanın yenidən qurulan, bərpa olunan digər görməli-gəzməli yerləri kimi, “İsa bulağı” da bundan sonra şəhər sakinləri və qonaqlarının sevimli məkanı olacaq.

## COP29-a hazırlıq necə gedir?

İyulun 8-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin beşinci iclası keçirilib.

Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29-a hazırlıq prosesinin Prezident İlham Əliyevin daimi nəzarəti altında olduğunu qeyd edib.

Bildirib ki, Prezident İlham Əliyev iyulun 4-də keçirilmiş “Şanxay Əməkdaşlıq Təşkilatı plyus” formatında tədbirdə və iyulun 6-da Şuşada təşkil edilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Azərbaycanın COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Şuşa Zirvə görüşündə qəbul olunmuş “Qarabağ Bəyannaməsi”ndə qardaş türk dövlətləri COP29-da real nəticələrin əldə edilməsi istiqamətində Azərbaycanın ardıcıl səylərini dəstəkləyiblər.

davamı səh. 2-də

## İtalyan tamaşaçısı üçün “Məhəbbət əfsanəsi”



Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə İtaliyanın Genuya şəhərində keçirilən “Nervi Rozza Music Ballet Festival”da iştirak edir.

Kollektiv 69-cu dəfə keçirilən ənənəvi sənət bayramında Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletini açıq səma altında, möhtəşəm səhnədə böyük tamaşaçı kütləsi qarşısında təqdim edib.

İyulun 6-da nümayiş olunan tamaşada əsas rollarda teatrın aparıcı solistləri – Ayan Eyvazova, İlya Manayenkov, Makar Ferştandt, Dinara Məmmədova çıxış ediblər.

Azərbaycan klassik balet tarixi, ümumiyyətlə, Azərbaycan mədəniyyəti üçün əlamətdar hadisəni seyr edənlər arasında Genuya şəhərinin meri Karlo Bucci, regionun mədəniyyət kuratoru Cesika Nikkolini, Genuya Opera Teatrının baş direktoru Kladuio Orazi, həmin teatrın bədii rəhbəri Pierancelo Konte və digər mötəbər qonaqlar yer alıblar.

Qeyd edək ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının İtaliyada növbəti çıxışı avqust ayında Verona şəhərində – “Arena de Verona” səhnəsində olacaq. Kollektiv bu dəfə də “Məhəbbət əfsanəsi” baletini təqdim edəcək.

## “Şən və hazırcavabların dostluq kuboku”

### Azərbaycan komandası Daşkənddə uğur qazanıb

Özbəkistanın Daşkənd şəhərində “Beynəlxalq Gənclər Festivalı – 2024” çərçivəsində “Şən və hazırcavabların dostluq kuboku” yarışması keçirilib.



Müsabiqədə Özbəkistan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Tatarıstan (RF) və Belarusdan gənclər iştirak ediblər. Hər birində 10 nəfər olmaqla 8 komanda səhnədə gənclərin həyatı, problemləri, arzuları və fikirləri barədə musiqinin müşayiətində performanslar təqdim edib.

Azərbaycan komandası özbək dilində çıxış edərək incə yumor hissi ilə iştirakçılar sırasında seçilməyi bacarıb. Komandanın üzvü Tamerlan Umudov “Ən yaxşı aktyor” kimi təşəkkürnamə ilə təltif olunub.

“Şən və hazırcavabların dostluq kuboku” Türk Ölkələrinin Yumor Təşkilatları Assosiasiyasının həyata keçirdiyi layihələrdən biridir. Assosiasiyanın ilk tədbiri 2023-cü ilin dekabrında Bakıda Azərbaycan Mədəniyyət Nazirliyinin həyata keçirdiyi “Yaradıcı həftə” çərçivəsində gerçəkləşib.

Assosiasiyanın məqsədi gənc nəslin bu sahədə yaradıcı potensialını üzə çıxarmaq, türkdilli ölkələr və regionları bir platformada birləşdirmək, ortaq məzmun yaratmaq və türk dillərinin inkişafına və tanınmasına töhfə verməkdir.

## Növbəti “İpək Yolu” musiqi festivalı tarixə çevrildi

Hər bir hadisə özlüyündə bir tarixdir. Amma o hadisələr tarixin yaddaşında qalır ki, onlar xalq üçün, ölkə üçün əhəmiyyət kəsb edir. Mədəni həyatda da həmçinin. 2010-cu ildə Azərbaycanın mədəniyyət təqviminə daxil olan və hər il müxtəlif ölkələrdən musiqi kollektivlərini, ifaçıları bir araya gətirən Şəki “İpək Yolu” Beynəlxalq Musiqi Festivalı da belə hadisələrdəndir.




Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadənin bədii rəhbəri olduğu bu festival hər yay qədim diyarımız Şəkidə musiqi bayramı kimi keçirilir. Bu illər ərzində ümumilikdə 35 ölkədən musiqiçilər öz çıxışları ilə “İpək Yolu”nda iz qoyub.

Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə bu dəfə də festival zəngin proqramı ilə sənətsevərlərə musiqi ziyafəti bəxş etdi. 5-7 iyul tarixlərində keçirilən XIII Şəki “İpək Yolu” Beynəlxalq Musiqi Festivalı tarixi hadisə kimi yaddaşlarda qalacaq.

***

İndi isə festivalın proqramından bir qədər ətraflı bəhs edək.

İyulun 5-də, festivalın ilk günü öncə “Yuxarı Karvansara” mehmanxana kompleksinin həyətində Rusiyanın Kazan şəhərindən (Tatarıstan Respublikası) gələn mahir bayan ifaçısı Aydar Salaxov bizim ifaçılar Kamil Mustafayev (bas-gitara) və Əli Nəsiblə (zərb) bir səhnəni bölüşərək maraqlı repertuarla çıxış etdilər. Qonaq musiqiçinin ifasında A.Vivaldinin “İlin fəsilləri”ndən “Qış”, Montinin “Çardaş”, öz bəstəsi olan “Təsadüfi görüş” və digər əsərlər tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

davamı səh. 3-də

## Konyada “Azərbaycan mədəniyyəti və ədəbiyyatı həftəsi” keçiriləcək

Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov qardaş ölkənin Konya bölgəsi üzrə Mədəniyyət və Turizm müdiri Mehmet Yündenlə görüşüb.



Mərkəzdən verilən məlumata əsasən, görüşdə Konya şəhəri ilə Azərbaycanın bölgələri arasında əməkdaşlıq, Konyada Azərbaycan mədəniyyətinə dair tanıtım layihələrinin reallaşdırılması ilə bağlı müzakirələr aparılıb.

Bu ilin payız aylarında Konyada “Azərbaycan mədəniyyəti və ədəbiyyatı həftəsi” tədbirlərinin, Konya Selcuq Universitetində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyi münasibətilə beynəlxalq konfransın təşkili, miniatür müsabiqəsi və sərgisinin keçirilməsi, eləcə də digər birgə layihələr nəzərdə tutulur.

davamı səh. 2-də

Milli Yaylaq Festivalı nə ilə yadda qaldı?



səh. 4



Dövlət Simfonik Orkestri “Yay axşamı”nda

səh. 5



“Tıq-tıq xanım” parkda göstərilib

səh. 5

# Qarabağ Bəyannaməsi ilə möhkəmlənən Türk birliyi




### “Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən zirvə görüşü rəmzi məna daşıyır”

*əvvəli səh. 1-də*

Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsinin 2021-ci ildə (15 iyun – red.) Şuşada imzalandığını xatırladan İlham Əliyev “Bu gün Qarabağ Bəyannaməsi də Şuşada imzalanacaq”, – deyə əlavə edib.

Qeyd edib ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda “Böyük Qayıdış” Proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır. “Böyük Qayıdış” Proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq.

### Qardaşlıq həmrəyliyinin təzahürü

Azərbaycan Prezidenti daha sonra deyib: “Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər. Fürsətdən istifadə edərək, qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm”.

Dövlətimizin başçısı bildirib ki, TDT-nin cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə Azərbaycan bu günlərdə TDT Katibliyinin hesabına 2 milyon dollar məbləğində vəsait köçürüb.

Diqqətə çatdırılıb ki, Şərq-Qərb nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir. Orta Dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tonadək artırılıb. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.

Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır.

Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir. Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan “Rəqəmsal İpək Yolu” layihəsi də mühüm təşəbbüslərdən biridir.

Bu ilin noyabrında Azərbaycanın COP29 konfransına ev sahibliyi edəcəyini deyən Prezident İlham Əliyev TDT-də təmsil olunan ölkələrin rəhbərlərini bir daha COP29-a dəvət edib: “COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir. 200-ə yaxın ölkə bizim namizədliyimizi yekdilliklə dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatında 4 il sədrliyi dövründə əldə etdiyi təcrübədən istifadə edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcək”.

Prezident çıxışının sonunda əmin olduğunu bildirib ki, Şuşada imzalanacaq Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar Türk dünyasının həmrəyliyini və eyni zamanda, TDT-nin beynəlxalq nüfuzunu daha da gücləndirəcək.

***

Sonra digər dövlət və hökumət başçıları çıxış ediblər.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxışında belə bir görüşün Türk dünyasının mədəniyyət paytaxtlarından biri olan Şuşada keçirilməsinin dərin mənası olduğunu xüsusi vurğulayıb:




“Gözəl Qarabağın incisi sayılan bu müqəddəs şəhər Azərbaycan xalqının cəsarətini, bənzərsiz mətanətini, əsl igidliyini və birliyini açıq şəkildə göstərən tarixi Zəfərin parlaq rəmzidir. XX əsrin böyük siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu möhtərəm Heydər Əliyevin sözləri ilə desək, Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur. Beləliklə, bu unikal şəhər təkcə Azərbaycan xalqının deyil, bütün türk xalqlarının qəlbində xüsusi ehtiram və qürur, iftixar duyğularını oyadır. Hazırda tarixi ədalətin bərpa olunduğu bir zamanda və Azərbaycanın azad etdiyi Qarabağda hörmətli İlham Əliyevin rəhbərliyi ilə aparılan nəhəng quruculuq işlərinin, memarlıq və mədəni abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlərin əyani şahidi oluruq. Sizin kimi dəyərli qardaşımızın belə möhtəşəm işləri yaxın dostlarınız olaraq bizləri sonsuz dərəcə sevindirir və qürurlandırır. Birgə səylərimiz və xüsusi marağımızla bu bənzərsiz şəhərin nümunəsində bütün Qarabağın gələcəkdə əbədi dostluğumuzun həqiqi rəmzinə çevriləcəyinə inanıram”.

***

Zirvə görüşündə “Türk Dövlətləri Təşkilatının Katibliyinin heyətinin və büdcəsinin artırılmasına dair qərar” imzalanıb.

Daha sonra Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsinin imzalanması mərasimi olub.

Sonda Şuşa qalasının fonunda xatirə fotosu çəkdirilib.

***

Qarabağ Bəyannaməsinin preambulasında regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğu, sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol, eləcə də siyasi, iqtisadi və bəşəri nailiyyətləri vurğulanır.

2023-cü il noyabrın 3-də “TürkTime” şüarı altında keçirilmiş TDT-nin Astana Zirvə görüşünün əhəmiyyəti və Qazaxıstan Respublikasının təşkilata sədrliyi qeyd edilir, eləcə də TDT-nin yaradılmasına dair Naxçıvan Sazişinə (2009) uyğun olaraq, Dövlət Başçıları Şurasının (DBŞ) müntəzəm görüşləri ilə yanaşı, ildə bir dəfə DBŞ-nin qeyri-rəsmi görüşlərinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin təklifi alqışlanır.

Türk dünyasından olan xalqların bir araya gətirilməsində Şuşa şəhərinin mənəvi əhəmiyyəti, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Şuşada keçirilən görüşün türk xalqlarının birliyinin, onların sülhə və ədalətə sadiqliyinin bariz təzahürü olduğu bəyan edilir.

Qeyd edək ki, 31 bənddən ibarət Qarabağ Bəyannaməsində Türk dünyasının gələcək inkişafı, eləcə də TDT-nin möhkəmləndirilməsi ilə bağlı mühüm istiqamətlər əksini tapıb.

Sənəddə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi bir daha vurğulanır.

TDT ölkələrinin mövcud imkanlarından və infrastrukturundan istifadə etməklə Avropa ilə Asiya arasında yeni telekommunikasiya magistral marşrutu yaratmaq məqsədi daşıyan “Rəqəmsal İpək Yolu” layihəsinin fəal yerinə yetirilməsi alqışlanır.

Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) və Türk İnvestisiya Fondu (TİF) kimi türk əməkdaşlıq təşkilatları arasında davamlı əməkdaşlıq təqdir edilir.

Bəyannamədə Türk dünyasının nizamnaməsi ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsü dəstəklənib və Katibliyə Bişkekdə keçiriləcək növbəti Zirvə görüşündə qəbul edilməsi üçün sənəd layihəsinin yekunlaşdırılması tapşırığı verilib.

Qeyd edək ki, TDT-nin 11-ci Zirvə görüşü 2024-cü il oktyabrın 24-də Bişkekdə keçiriləcək və təşkilata yeni dönəm sədrlik Qazaxıstandan Qırğız Respublikasına keçəcək.

# Konyada “Azərbaycan mədəniyyəti və ədəbiyyatı həftəsi” keçiriləcək

*əvvəli səh. 1-də*



Mərkəzin direktoru Samir Abbasov Konyada Mövlana Muzeyinin müdiri Naci Bakırcı ilə də görüşüb.

Mövlana Muzeyinin Azərbaycan muzeyləri ilə əməkdaşlığı, muzeyin əlyazmalara dair kitabxanasında saxlanılan Azərbaycana aid qiymətli əsərlərdən söz açılıb, gələcəkdə bu unikal əlyazmalarla bağlı araşdırmaların aparılması, onların kataloqunun hazırlanması razılaşdırılıb.

Konyada keçiriləcək “Azərbaycan mədəniyyəti və ədəbiyyatı həftəsi” tədbirləri çərçivəsində sözügedən qədim və nadir əlyazmaların muzeydə sərgisinin açılmasına dair razılıq əldə edilib.

Sonra Mövlana Muzey Kompleksinə baxış keçirilib. Naci Bakırcı muzey kompleksində aparılmış yenidənqurma işi haqqında məlumat verib, Türkiyənin restavrasiya sahəsində qabaqcıl təcrübəsinin Azərbaycanla bölüşülməsi və bu sahədə əməkdaşlıq müzakirə olunub. Naci Bakırcı muzey kompleksini ildə 4 milyondan artıq turistin ziyarət etdiyini vurğulayaraq burada görülən işlər və guşələri təqdim edib.

Mövlana Muzeyinin qədim və nadir nüsxəsi sayılan, daimi sərgidə nümayiş etdirilən dahi Azərbaycan şairi Məhəmməd Füzulinin Osmanlı dövrünə aid xüsusi işləmələrlə hazırlanmış “Hədiqətüs-süəda” əsərinə baxış keçirilib.

# COP29-a hazırlıq necə gedir?

### Təşkilat Komitəsinin iclası olub

*əvvəli səh. 1-də*

Samir Nuriyev Prezident İlham Əliyevin Liderlər Sammitinə dəvətinə cavab olaraq tədbirdə iştirak edəcək dövlət və hökumət başçılarının sayının artdığını bildirib. Sammitə böyük marağın ölkəmizə hörmətin, Azərbaycanın nəhəng beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil etmək qabiliyyətinə inamın və yaşıl keçidlə bağlı qəti siyasi iradəsinə etimadın göstəricisi olduğu vurğulanıb.

O da diqqətə çatdırılıb ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq “Ev Sahibi Ölkə” Sazişinin yekun mətni müvafiq dövlət qurumlarının rəyləri nəzərə alınmaqla yaxın zamanlarda hazır olacaq.

Təşkilat Komitəsinin sədri 2024-cü il iyunun 3-13-də keçirilmiş Bonn iqlim konfransından sonra Azərbaycanın COP29 sədrliyinin aktiv mərhələsinə qədəm qoyduğunu qeyd edib.

Azərbaycanın COP29 prioritetləri barədə danışan Samir Nuriyev bildirib ki, müxtəlif dövlət qurumlarının təklifləri əsasında, eləcə də BMT və digər beynəlxalq qurumlarla intensiv müzakirələr nəticəsində 14 təşəbbüsdən ibarət ilkin təkliflər siyahısı hazırlanır. BMT ilə razılaşdırmaqla COP29-un tematik günlərinin bölgüsü aparılıb. Bir sıra nüfuzlu əcnəbi şəxslərdən ibarət COP29 Beynəlxalq Məşvərət Komitəsinin yaradılması istiqamətində işlər də yekunlaşmaqdadır.

Sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək COP29-la bağlı ümumi gedişat, Bonn iqlim konfransının nəticələri, COP29 komandasının xarici səfərləri barədə məlumat verib.



Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov COP29-a hazırlıq çərçivəsində təşkilati-logistika sahəsində aparılan fəaliyyət, o cümlədən Bakı Olimpiya Stadionunda infrastrukturun qurulması üzrə başlanmış işlər barədə danışıb.

Xarici işlər naziri Ceyhun Bayramov ümumi substantiv məsələlər, Bonn iqlim konfransında yeni iqlim maliyyəsi hədəfi üzrə aparılmış danışıqlar, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, təşəbbüslər barədə çıxış edib.

Prezidentin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev kommunikasiya məsələləri, o cümlədən xarici media ilə aparılan işlər barədə danışıb.

Digər çıxış edənlər də müvafiq sahələr üzrə görülən işlər və nəzərdə tutulan tədbirlər barədə məlumat veriblər.

Sonda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı qeyd olunub

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 105 illik yubileyinə həsr olunmuş rəsmi qəbul təşkil olunub. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Xarici işlər naziri Ceyhun Bayramov 9 iyul – diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə beynəlxalq müstəvidə ölkəmizin maraqlarını qoruyan və təşviq edən bütün əməkdaşlara təbriklərini çatdırıb, onlara fəaliyyətlərində uğurlar arzulayıb. Xidməti fəaliyyətləri zaman dünyasını dəyişən diplomatların xatirəsi ehtiramla yad edilib.

Uzun illər ölkəmizin xarici siyasət prioriteti olan keçmiş erməni işğalına son qoyulması istiqamətində Ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən görülən böyük işlər nəticəsində ərazi bütövlüyü və suverenliyimizə beynəlxalq dəstəyin təmin edildiyi, bununla da Zəfərimiz üçün zəruri siyasi və hüquqi çərçivənin yaradıldığı vurğulanıb. Yaranmış bu tarixi şəraitdə ölkəmizin, hər zaman olduğu kimi, dialoq və sülh tərəfdarı qismində çıxış etdiyi, qarşı Ermənistan tərəfi üçün isə ərazi iddiaları əvəzinə, regional əməkdaşlığı seçmək vaxtının gəlib çatdığı qeyd edilib.



Hazırda beynəlxalq münasibətlər sistemində hökm sürən qlobal qeyri-sabitliyin fonunda Azərbaycanın baxışının çağırışlara qarşı mübarizədə möhkəm əməkdaşlığın gücləndirilməsi olduğu və bu baxışın xarici siyasətimizin yeni proaktiv roluna dəlalət etdiyi bildirilib. Bu istiqamətdə, xüsusilə ailəmiz hesab etdiyimiz Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, habelə COP29-a ev sahibliyimiz çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə sahəsində inkişaf etmiş və inkişafda olan ölkələr arasında körpü yaradılması istiqamətində təşəbbüslərin əhəmiyyəti diqqətə çatdırılıb.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xarici İşlər Nazirliyində, o cümlədən xarici ölkələrdə fəaliyyət göstərən bütün diplomatik xidmət orqanları əməkdaşlarına, eləcə də peşə bayramı ərəfəsində Prezident İlham Əliyev tərəfindən diplomatik rütbə ilə təltif olunan diplomatlara səmimi təbriklərini çatdırıb. Keçmiş işğal və münaqişənin aradan qaldırılmasından sonra bu gün diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramının tam fərqli ab-havada qeyd olunduğu bildirilib.

Ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun duayeni Nasir Əbdül Kərim Əbdül Rəhim (Fələstinin Azərbaycandakı səfiri – red.) diplomatik nümayəndəliklərin adından səmimi təbriklərini çatdırıb.

Sonra Azərbaycanın diplomatiya tarixinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Rəsmi qəbul ziyafət və konsert proqramı ilə davam edib. Konsert proqramında çıxış edən incəsənət ustaları ilə xatirə şəkli çəkdirilib.

# Növbəti "İpək Yolu" musiqi festivalı tarixə çevrildi

əvvəli səh. 1-də

Axşam "Marxal" istirahət kompleksinin Yay teatrında festivalın təntənəli açılış mərasimi oldu.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, festivalın bədii rəhbəri Xalq artisti, professor Firəngiz Əlizadə və Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı çıxış edərək festivalın əhəmiyyətindən danışdılar, festivalın işinə uğurlar dilədilər. Sonra səhnə "İpək Yolu"nun qonaqlarından indoneziyalı musiqiçilərin – "Mila Art" rəqs qrupu və "Hamdani" musiqi qrupunun ixtiyarına verildi.

"Mila Art Dance" 2012-ci ildə Mila Rozinta Totoatmojo tərəfindən yaradılmış qadın artistlərdən ibarət rəqs qrupudur. Qrup birgə sənət, yaradıcılıq və təcrübə məktəbidir. Yarandığı il 8 üzvdən ibarət olan "Mila Art" qrupu hazırda 22 sənətçi ilə İndoneziyanın musiqi mədəniyyətini dünyada təmsil edir. Qrup həm də həvəskarların istedad və yaradıcılıqlarının inkişafı üçün "Mila Art Dance School" məktəbini yaradıb.

"Hamdani" musiqi qrupunun əsas xüsusiyyəti İndoneziyanın milli musiqi alətlərindən istifadə ilə bu ölkənin musiqisini inkişaf etdirməkdir. Qrupun repertuarı həm ənənəvi, həm də müasir İndoneziya musiqi elementlərini özündə birləşdirir. Bir çox festivallarda çıxış etmiş "Hamdani" 2022-ci ildə İndoneziyanın Bakıdakı səfirliyi tərəfindən təşkil edilmiş mədəni tədbirlərin də iştirakçısı olub.

Kollektivlər "İpək Yolu" festivalında müəyyən süjet xəttinə əsaslanan kompozisiyalarla çıxış etdilər. Rəqslərin bəzilərində onların vokal ifaları da səslənirdi. İndoneziyalı musiqiçi və rəqqasların çıxışları da maraqla qarşılandı.

***

"İpək Yolu" festivalı öz ənənəsinə sadiq qalaraq, yenə də yolunu Şəki Musiqi Kollecindən saldı. Bu musiqi təhsili ocağı festivalın keçirildiyi ilk illərdən onunla birgə yol gəlir. 2010-cu ildə festivalın bədii rəhbəri Firəngiz Əlizadə kollecə öz şəxsi royalını hədiyyə edib. Hər dəfə kollecin müəllim və tələbə heyəti festivala öz çıxışları ilə xüsusi rəng qatır.

Bu dəfə "İpək qızlar" (bədii rəhbər Xatirə Orucova) qrupunun ifasında Oqtay Rəcəbovun "Anam Azərbaycan" mahnısı,



kamera ansamblının ifasında (bədii rəhbər Gülnar Həsənova) İ.S.Baxın c-moll konsertinin I hissəsi, Y.Doqanın "Vals", eləcə də Emin Sabitoğlunun "Ad günü", "Ölsəm, bağışla", "Özgə ömür", "Təhminə" kinofilmlərinə yazdığı musiqidən nümunələr səsləndi. Tələbələrdən Səma Mustafayevanın ifasında Qara Qarayevin "Eskiz" (müəllim Gülnar Həsənova), Xoşqədəm Paşayevanın tələbələrindən Aytac İbrahimova və Selcan Alimova Q.Qarayevin 4 və 6-cı prelüdü, a-moll əsərlərini məharətlə ifa etdilər. Mənsur Qaffarovun tələbəsi Yaqub Mustafayev də tarda A.Siqankovun "Ay parlayır" pyesini ifa etdi.



Sonda direktor Sərdar Şərifov Xalq artisti Firəngiz Əlizadəyə "İpək Yolu" festivalı çərçivəsində kollecə göstərdiyi diqqətə görə təşəkkürünü bildirdi. Firəngiz Əlizadə və Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı müəllim və tələbələrə uğurlar dilədilər.

***

6 iyul proqramı, ilk növbədə, Hindistandan gələn "Bhangra" rəqs qrupunun çıxışı ilə də yadda qaldı. "Bhangra" xalq rəqsi növü kimi Hindistanın Pəncab bölgəsində fermerlər arasında mədəni və sosial bayram kimi yaranıb və demək olar ki, bu ştatın simvoluna çevrilib. Zəngin hind mədəniyyətinin bir layını təmsil edən qrupda bir neçə rəqqas qısa mahnılarla yellənən qolların müşayiəti ilə bədənin enerjili sıçrayışlarını nümayiş etdirir. Rəqs dhol nağarasının müşayiəti ilə ifa olunur, bhangra musiqisinin əlaməti olan sinxronlaşdırılmış ritmik xarakter verir. "İpək Yolu" festivalına təşrif buyuran "Bhangra" rəqs qrupu üzvlərinin hər biri bacarıqlı, peşəkar ifa ilə yadda qaldılar.

Konsert çərçivəsində həm də Hindistan və Azərbaycan milli mətbəx nümunələri və adət-ənənələrinin bəzi atributları nümayiş olundu. Hindlilərin xınayaxma mərasimi və Şəkinin qədim təkəlduz sənəti üzrə ustad dərsi keçirildi. Bu qarşılıqlı münasibətin musiqi təcəssümü də səhnədə öz əksini tapdı. Əvvəlcə azərbaycanlı rəqqaslar "Zəfər" rəqsini, sonra Namiq Aslanov "Şəki" mahnısını ifa etdilər. Hindistanlı sənətçilərin rəqslərini maraqla izləyən tamaşaçılardan bir neçəsi hətta konsertin sonunda səhnəyə çıxaraq birgə rəqs etdilər. Bu faktın özü "İpək Yolu" festivalının xalqlar arasında mənəvi körpü olmasına əyani bir misaldır.

***

Artıq bir neçə ildir ki, festivalın təşkilində TÜRKSOY da yaxından iştirak edir. Bu il də onların dəvəti ilə Türkiyənin Bursa vilayətindən "İnəgöl" xalq rəqsləri qrupu, Qazaxıstandan isə Xalq artisti Baxtiyar Taylakbayev və Lara Rısbay festivalda iştirak etdilər. İyulun 7-də Şəkidəki Heydər Əliyev Mərkəzində keçirilən bu konsert də maraqlı gedişatı ilə tamaşaçılara xüsusi zövq verdi.





Əvvəlcə səhnəyə çıxan L.Rısbay Ələkbər Tağıyevin "Sən gəlməz oldun" mahnısı ilə sanki Azərbaycan və qazax xalqlarının dostluq münasibətini ifadə etdi. B.Taylakbayev da öz növbəsində qazax və Azərbaycan xalqlarının dostluğunun möhkəmlənməsində festivalın əhəmiyyətini vurğuladı, öz ifalarını təqdim etdi.





Qazaxıstanlı müğənnilərlə Türkiyə rəqs qrupunun ifaları növbələşməklə maraqlı bir proqram təqdim olundu.

***

Axşam saatlarında isə "Marxal"ın Yay teatrında festivalın təntənəli bağlanış mərasimi oldu. Xalq artisti, "Şəkinin fəxri vətəndaşı" Ağaverdi Paşayevin rəhbərliyi və dirijorluğu ilə Dövlət Xalq Çalğı Alətləri Orkestri və Fikrət Əmirov adına Mahnı və Rəqs Ansamblı xüsusi repertuarla çıxış etdi. Bu il 100 illik yubileyləri qeyd olunan unudulmaz bəstəkarlarımız Şəfiqə Axundova və Süleyman Ələsgərovun əsərlərindən ibarət musiqi çələngi təqdim edildi.

Əməkdar artistlər Almaz Orucova (xanəndə), Çinarə Heydərova (qanun), Xəyyam Məmmədov (kamança), müğənnilər Səbinə Ərəbli, Vəfa Vəzirova, Nurlana Abdullayeva, Zabitə Alıyeva, Sərxan Bünyadzadə, Taleh Yəhyayev, eləcə də Əməkdar artist Ceyhun Qubadovun rəhbərliyi ilə rəqs kollektivi tamaşaçılara musiqi zövqü aşıladılar. Proqram dahi Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Cəngi" ilə tamamlandı.

Konsertin repertuarı təsadüfi seçilməmişdi. Festivalın bədii rəhbəri Firəngiz Əlizadə Üzeyir Hacıbəylinin tələbələri Şəfiqə Axundova və Süleyman Ələsgərovun yad olunmasını və festivalın son musiqi nömrəsinin də Üzeyir bəyin əsəri seçilməsini öncədən təklif etmiş və kollektivlərin bədii rəhbəri Ağaverdi Paşayev proqramı bu istiqamətdə tərtib etmişdi. Sonda Üzeyir bəyin "Cəngi"sini həm xalq çalğı alətləri orkestri, həm də mahnı və rəqs ansamblı birgə ifa etdi. Bu kollektivlərin də hər birini Üzeyir bəy yaradıb və bu gün də onun ənənələri yaşamaqdadır.

***

Sonda qısa olaraq "İpək Yolu" festivalının ənənələrinə də nəzər salaq. Hər il olduğu kimi, bu dəfə də Şəki Şəhər İcra Hakimiyyəti tərəfindən festivalın simvolu hazırlanmışdı. İcra başçısı Elxan Usubov və festivalın bədii rəhbəri Firəngiz Əlizadə hər konsertdən sonra səhnəyə çıxaraq həmin simvolu Rusiya, Hindistan, İndoneziya, Qazaxıstan, Türkiyə, eləcə də Azərbaycanı təmsil edən kollektivlərə təqdim etdilər.

Daha bir ənənə festivalın bağlanış mərasimində Bəstəkarlar İttifaqı, Şəki Şəhər İcra Hakimiyyəti və TÜRKSOY təşkilatı tərəfindən iştirakçıların, eləcə də festivalın işində fəal iştirak edənlərin təltif olunmasıdır.

İcra başçısı Elxan Usubov Bəstəkarlar İttifaqının 90 illiyinə həsr olunan medalı Xalq artisti Firəngiz Əlizadəyə təqdim etdi. Festivalın təşkilində xidmət göstərən Şəki şəhər nümayəndələri də fəxri fərman və diplomlarla təltif olundular. Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlıya "Şəkinin fəxri vətəndaşı" plaketi verildi. Elçin Qafarlı isə bir qrup sənətçimizə TÜRKSOY-un medal və fəxri fərmanlarını, təşəkkürnamələrini təqdim etdi.

XIII Şəki "İpək Yolu" Beynəlxalq Musiqi Festivalında zəhməti olan hər kəsə verilən mükafatlar da festival tarixinin bir səhifəsidir. Beləliklə, Şəkidə sayca 13-cü "İpək Yolu" festivalı tarixə çevrildi.

**Səadət Təhmirazqızı**
**Əməkdar mədəniyyət işçisi**

# 145 obyektin abidə statusu alması ilə bağlı təhlillər aparılıb

## Daşınmaz mədəni sərvət üzrə Ekspert şurasının iclası keçirilib

İyulun 8-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyi yanında daşınmaz mədəni sərvətlərin müəyyən edilməsi üzrə Ekspert şurasının həyata keçirilmiş işlərə və qarşıda duran vəzifələrə həsr olunan növbəti iclası keçirilib.



Ekspert şurasının sədri, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova çıxış edərək şura tərəfindən həyata keçirilən işlər barədə məlumat verib.

İclasda çıxış edən Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva abidələrin qiymətləndirilməsi ilə bağlı mövcud çətinliklər və qarşıda duran məsələlər haqqında danışıb.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Mədəni irsin qorunması şöbəsi Abidələrin qorunmasına nəzarət sektorunun müdiri Pərviz Nəcəfov bildirib ki, I mərhələdə Bakı şəhəri üzrə 6 və işğaldan azad edilmiş ərazilər üzrə 51 obyekt, II mərhələdə Binəqədi rayonu üzrə 13 dövlət qeydiyyatında olan abidə və 12 tarix-memarlıq əhəmiyyətli tikili, III mərhələdə isə Memarlar İttifaqının Səbail rayonu üzrə təklif etdiyi 63 tikili – ümumilikdə 145 obyekt baxılması üçün Ekspert şurasına təqdim olunub.

Qeyd edilib ki, I mərhələdə Bakı şəhəri və işğaldan azad edilmiş ərazilər üzrə obyektlərlə bağlı şura üzvləri tərəfindən verilən təkliflər ümumiləşdirilərək Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) göndərilib. AMEA tərəfindən 48 obyektin siyahıya daxil edilməsinə müsbət rəy verilib. Bu obyektlərin abidələr siyahısına daxil edilməsi üçün qərar layihəsi hazırlanıb və razılaşdırılması üçün müvafiq qurumlara göndəriləcək.

II mərhələdə Binəqədi rayonu üzrə dövlət qeydiyyatında olan 9 abidənin adı, tarixi və ünvanlarında dəqiqləşdirmə aparılaraq siyahıda düzəliş olunması təklif edilib. 12 tarix-memarlıq əhəmiyyətli tikiliyə dair məlumatlar hazırlanaraq şura üzvləri tərəfindən baxılıb. 8 obyektin abidələr siyahısına daxil edilməsi məqsədəuyğun hesab olunub.

III mərhələdə isə Səbail rayonu üzrə 63 binaya dair hazırlanmış materiallara şura üzvləri tərəfindən baxış olub. Onlardan 49-unun abidələr siyahısına daxil edilməsi məqsədəuyğun sayılıb. Hər iki mərhələdə şura üzvləri tərəfindən verilən təkliflər əsasında AMEA-ya məktub hazırlanıb.

Sonda şura üzvlərinin həyata keçirilən işlərlə bağlı irad və təklifləri dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, Ekspert şurası "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarına müvafiq əlavə və dəyişikliklər edilməsi məqsədilə təsis olunub.

Ekspert şurasında Mədəniyyət Nazirliyi, nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, komitənin Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi, Bakı Şəhər İcra Hakimiyyəti, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, Dövlət Turizm Agentliyi, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Memarlar İttifaqı, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və Naxçıvan MR Mədəniyyət Nazirliyi təmsil olunur.

**Nurəddin**

# "Kədərin səsləri"

## Macar və rus bəstəkarlarının əsərlərindən ibarət musiqi axşamı

İyulun 8-də Beynəlxalq Muğam Mərkəzində "Kədərin səsləri" adlı konsert proqramı təqdim olunub.

Musiqi axşamında Ümid Mustafazadə (violin), Fatimə Nəsirli (hər ikisi violin), Üzeyir Mahmudbəyli (viola) və Əsmər Kərimli (cello) macar bəstəkarı Bela Bartokun 1 nömrəli simli kvarteti və rus bəstəkarı Dmitri Şostakoviçin 15 nömrəli simli kvartetini səsləndiriblər.

Konsertdən əvvəl musiqişünas Şəfaqət Məmmədova əsərlər haqqında məlumat verib. Bildirilib ki, B.Bartokun 1 nömrəli simli kvarteti xalq musiqisinin təsiri ilə zəngin, emosional intensivliyi birləşdirən, insan ruhunun dərindən tədqiqidir. Ehtiras və yeniliklə dolu olan əsər bəstəkarın ənənəvi və müasir elementləri harmonik şəkildə bir araya gətirmək bacarığını nümayiş etdirir.



D.Şostakoviçin ömrünün son illərində bəstələnən bu əsər isə fanilik və introspeksiya (özünü müşahidə) mövzularını əks etdirir və son notlar səssizləşdikdən sonra uzun müddət davam edən qeyri-adi bir keyfiyyətə malikdir.

İstedadlı musiqiçilərdən ibarət kvartet musiqi axşamında öz ifaları ilə musiqidə bəzən hər notun bir hekayə danışdığı və hər hərəkətin canlı emosional mənzərə yaratdığını tamaşaçılara dolğun şəkildə təqdim edib.

Konsert proqramı alqışlarla qarşılanıb.

**L.Azəri**

# "Ümumtürk mədəniyyətinin vizual kodu"

## Milli Xalça Muzeyində mühazirə



İyulun 8-də Azərbaycan Milli Xalça Muzeyində sənətşünaslıq üzrə fəlsəfə doktoru, vizual sənət nəzəriyyəçisi Elçin Şamillinin təqdimatında "Ümumtürk mədəniyyətinin vizual kodu" mövzusunda mühazirə keçirilib.

Sənətşünas müasir dövrdə vizual dilin memarlıq, dizayn və dekorativ-tətbiqi sənətdə oynadığı roldan danışıb. Xalça sənətinin ümumtürk mədəniyyətinin vacib qollarından biri kimi dünya incəsənətinə, memarlığına təsirini nümunələr əsasında diqqətə çatdırıb. O, xalçalarımızı bəzəyən bəşəri məzmunlu, xüsusi mənalar daşıyan işarələr sisteminin, təsvirlərin, naxışların müasir formada, fərqli aspektlərdə təqdimatının, sənətkarlarımızın bu istiqamətdə öz fəaliyyətlərini genişləndirməsinin zəruriliyini vurğulayıb.

Mühazirədə mövzu ətrafında iştirakçıların sualları cavablandırılıb, qonaqlarla maraqlı fikir mübadiləsi aparılıb.

**Lalə**

# "İpək Yolu" festivalı zamanı Şəkidə "Şəhər günü" də keçirilib

## Yerli musiqi kollektivləri çıxış edib

Xəbər verdiyimiz kimi, 5-7 iyul tarixlərində Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəki şəhərində "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalı keçirilib. Festival Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı, Şəki Şəhər İcra Hakimiyyəti və Şəki Şəhər Bələdiyyəsinin birgə təşkilatçılığı ilə gerçəkləşib.



Son illərin ənənəsinə uyğun olaraq, bu il də "İpək Yolu" festivalı ilə bərabər, Şəkidə "Şəhər günü" də keçirilib.

İyulun 6-da keçirilən mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Dövlət Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin sədri Murad Ağabəyli, Şəki Bələdiyyəsinin sədr müavini Səyyarə Musayeva çıxış ediblər.

Diqqətə çatdırılıb ki, Şəkidə sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etməsi ona UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə üzv olmaq hüququ qazandırıb. 2019-cu ildə isə UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında (7 iyul, Bakı) "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

"Yuxarı Karvansara" mehmanxana kompleksinin həyətində və "AzAbrau-Şəki Şərab" MMC-də təşkil olunan bayram proqramı Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən musiqi kollektivləri – Şəki Folklor ansamblı, "Zirvə" ansamblı, Qax rayonu Qaxingiloy kənd Mədəniyyət evinin "Şvitkatso" xalq xoru və "İmedi" rəqs qrupunun rəngarəng çıxışları ilə də yadda qalıb.

# "Şirvanda kino günləri" davam edir

Xəbər verdiyimiz kimi, Azərbaycan Kinematoqrafçılar İttifaqı və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə "Şirvanda kino günləri" layihəsi keçirilir.



Layihənin növbəti ünvanı Neftçala rayonu olub. İyulun 5-də rayondakı Heydər Əliyev Mərkəzinin kino zalında filmlər nümayiş etdirilib.

Günün birinci yarısında kinosevərlər Qulu Əsgərovun "Mən burdayam, İlahi!" tammetrajlı bədii filmini izləyiblər. Daha sonra Elvin Aşırovun "Gülyetərin qayıdışı", İntiqam Hacılının "İlkin şəhid" qısametrajlı sənədli, Qulu Əsgərovun "Hasar" və Amil Amalın "Titrəmə" qısametrajlı bədii filmləri göstərilib.

Nümayişdən sonra tamaşaçılar filmlər haqqında fikirlərini bölüşüblər.

Qeyd edək ki, iyul ayının birinci yarısınadək davam edəcək layihə üzrə Şirvan şəhəri, Salyan və Hacıqabul rayonlarında da adıçəkilən filmlərin nümayişi təşkil olunacaq.

# Mütaliənin təşviqi məqsədilə

Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Kitab Evi" İctimai Birliyinin "Mütaliə mədəniyyətinin inkişafı üçün çoxtərəfli əməkdaşlığın qurulması üzrə təşəbbüslər və fəaliyyətlər" adlı layihəsi çərçivəsində tədbir keçirilib.



Layihə haqqında məlumat verilib. Qeyd edilib ki, vətəndaşlarımızın, o cümlədən, yeniyetmə və gənclərimizin kitabxanalardan daha çox faydalanmasını təmin etmək üçün kitabxanalar iş vaxtından kənarda da oxucularımıza xidmət göstərmək məqsədilə elektron kitabların pulsuz istifadəsinə çalışmalıdırlar.

Bildirilib ki, layihənin məqsədi vətəndaşları, xüsusilə də gəncləri özünü, tarixini, mədəniyyətini və dünyanı tanımaq yolunda elmi məlumatlar və beynəlxalq uğurlu təcrübə nümunələri işığında mütaliəyə həvəsləndirmək və onlarda oxu vərdişi yaratmaqdır.

Tədbirin sonunda kitabxananın fəal oxucuları olan şagirdlər "Kitab Evi" İB-nin fəxri fərmanı ilə təltif olunublar.

Layihə çərçivəsində iştirakçılara bədii ədəbiyyat, dəftərxana ləvazimatı paylanılıb.

# Media nümayəndələri üçün Şuşaya infotur

Prezident İlham Əliyevin iyulun 5-də Şuşa şəhərində açılışını etdiyi obyektlərlə tanışlıq məqsədilə media nümayəndələri üçün infotur təşkil olunub.

Media mənsubları bərpadan sonra açılışı olan Aşağı Gövhər ağa məscidini də ziyarət ediblər. Məlumat verilib ki, XIX əsrdə memar Səfixan Qarabağinin layihəsi əsasında ərsəyə gələn məscid İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa edilmiş məscidlərdən birincisidir.

Aşağı Gövhər ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşa şəhəri tarixən yuxarı və aşağı olmaqla 17 məhəllədən ibarət olub. Aşağı Gövhər Ağa məscidi şəhərin aşağı hissəsində yerləşdiyinə görə belə adlandırılıb. Məscidi daha uca və cəlbedici etmək üçün memar minarələri arxa fasadda yerləşdirib. Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmiş, məscid vandalizmin qurbanına çevrilmişdi.

2021-ci ilin dekabrında başlanan bərpa işləri Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holding"in dəstəyi ilə aparılıb. Layihəyə Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislər cəlb olunub.

# III Milli Yaylaq Festivalı nə ilə yadda qaldı?

5-7 iyul tarixlərində Göygöl rayonunda III Milli Yaylaq Festivalı keçirilib. Festival "Cavad xan" Tarix və Mədəniyyət Fondu ilə "Kap.az" – Fərqli Turizm MMC-nin təşkilatçılığı, Dövlət Turizm Agentliyi, Gənclər və İdman Nazirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Dünya Etnoidman Konfederasiyası, Gəncə şəhər, Göygöl rayon icra hakimiyyətləri, Dövlət Məşğulluq Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə gerçəkləşib.

Xan yaylağında təşkil olunmuş festivalın açılış mərasimində iştirak edən gənclər və idman naziri Fərid Qayıbov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Göygöl rayonunun icra başçısı Elvin Paşayev və digər rəsmilər qurulan guşələrə baş çəkiblər.

Jurnalistlərə açıqlama verən Fərid Qayıbov tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb:





"Bir sıra ölkələr burada öz mədəniyyətini nümayiş etdirir. Ərazidə əla ab-hava var. Festivalda milli adət-ənənələrimiz və müxtəlif idman növləri nümayiş olunur".

Festivalın ikinci günündə ustad dərsləri, yarış və müsabiqələr, oxatma təlimi, milli güləş, zorxana, kəmər güləşi təlimləri, milli rəqslər, aşıqların deyişməsi, konsert və tamaşalar təqdim olunub.

Üçüncü gün isə möhtəşəm konsert proqramı ilə yadda qalıb.

Festival zamanı Xan yaylağında orijinal üslubda "Yaylaq yurdu" adlı etnoqəsəbə yaradılıb. Burada yaşayış yurdları (alaçıqlar) ilə yanaşı, Cıdır meydanı, "Yaylaq bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı" (tamaşalar üçün səhnə), "Pəhləvan meydanı" (yarış sahəsi), "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" və digər tematik sahələr iştirakçıların ixtiyarında olub.

Festival şərti olaraq üç hissədən ibarət olub: mədəni-etnoqrafik hissə, milli yaylaq (idman) oyunları və eko-etnoturizm. Etnoqəsəbənin ərazisində el sənətləri təqdim olunub. "KOB Fest" sərgi-yarmarkası da təşkil edilib. KOBİA-nın təşkilatçılığı ilə keçirilən yarmarkada KOB subyektləri tərəfindən hazırlanan şəbəkə sənəti, rəssamlıq, xalçaçılıq, taxta oyma, milli musiqi alətləri nümunələri və müxtəlif əl işləri maraqla qarşılanıb.

Qeyd edək ki, xaricdən çoxsaylı qonaqların da qatıldığı Milli Yaylaq Festivalı ilk dəfə 2019-cu ildə Gədəbəy rayonunda, ikinci dəfə 2022-ci ildə Göygöl rayonunda keçirilib.

# Dəyirmi masa, görüş, plener, təqdimat...

## Yerlərdə mədəni həyat

Qazax rayon MKS-nin Elmar Hüseynov adına Mərkəzi Kitabxanasının oxu zalında "Qalib Azərbaycanın Zəfər yolu" adlı dəyirmi masa keçirilib. Qeyd olunub ki, Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən regionun lider ölkəsinə çevrilib. Ölkənin iqtisadi uğuru hərbi potensialının artmasına təkan verib və Azərbaycanın uzun illər ən ağrılı problemi olan Qarabağ məsələsi öz həllini tapıb.





Tovuz rayon Mərkəzi Kitabxanası Tovuz regional "ASAN Xidmət" mərkəzində "Oxuyaq və oxudaq!" mövzusunda gənc könüllülərlə diskussiya və səyyar kitab xidməti təşkil edib. Könüllülərlə intellektual və sağlam düşüncəli gəncliyin formalaşmasında mütaliənin müsbət rolu haqqında fikir mübadiləsi aparılıb. Həmçinin onların mütaliə marağı dinlənilib və kitabxana fondundakı uyğun ədəbiyyatlar barədə məlumat verilib. Mərkəzin əməkdaşlarına və gənc könüllülərə səyyar kitabxana xidməti göstərilib.

"Təbiəti sevək və qoruyaq!" adlı tədbir keçirilib. Bildirilib ki, ekoloji problemlərin həlli üçün ətraf mühitin qorunub saxlanılması, yaşıllığın artırılması mühüm şərtdir. Həmçinin qeyd olunub ki, gənclərdə ekoloji şüurun inkişaf etdirilməsi, ətraf mühitə qarşı həssas münasibətin formalaşdırılması, təbii sərvətlərə dəyər verilməsi, bu sahədə maarifləndirmə işləri böyük əhəmiyyət kəsb edir.

***

Şirvan Dövlət Rəsm Qalereyası tərəfindən "Təbiəti gənc nəslə sevdirək!" adlı plener təşkil olunub.





Qalereyanın 15 nəfərədək dərnək üzvü Kür çayının Şirvan və Hacıqabul rayonlarından keçən



mühafizə zolağı boyu uzanan meşəlik ərazidə rəsmlər çəkiblər. Plenerin sonunda iştirakçılar "Pir Hüseyn Xanəgahı" Tarix-Memarlıq Qoruğunu ziyarət ediblər.

Salyan rayon Heydər Əliyev Mərkəzində "Vətən bizim and yerimiz" layihəsi çərçivəsində Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü Raziyə Kamilqızının "Hərə bir qəhrəman" kitabının təqdimatı keçirilib. Kitabda şəhidlərin şərəfli ömür yoluna həsr olunan publisistik məqalələr, xatirələr və şeirlər yer alıb. Çıxış edənlər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq göstərən vətən övladlarının döyüş yolunun öyrənilməsi, xatirəsinin əbədiləşdirilməsi və gənclərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsinin əhəmiyyətini vurğulayıblar.

AYB-nin Muğan bölməsi və Salyan rayon Mərkəzi Kitabxanasının birgə təşkilatçılığı ilə AYB-nin üzvü, yazıçı-publisist Qəni Camalzadənin oxucularla görüşü keçirilib. Çıxışlarda yazarın həyat və yaradıcılığı haqqında söhbət açılıb. Qəni Camalzadə göstərilən diqqətə və görüşə görə təşkilatçılara təşəkkür edib, oxucuların suallarını cavablandırıb. Müəllif "Şeytana daş atanlar", "Karxana" və "Xilaskarın axırıncı savaşı" kitablarını kitabxanaya hədiyyə edib.

***

Lənkəran Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə Naxçıvan MR-in yaranmasının 100 illiyinə həsr olunmuş "Ulu Naxçıvanım" adlı tədbir keçirilib. Tədbirdə şair Salman Məmmədoğlu və məktəblilər vətənpərvərlik ruhunda şeirlər səsləndiriliblər.

Masallı rayon Mərkəzi Kitabxanasında "Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması tarixi ədalətin bərpası idi" mövzusunda tədbir keçirilib. Bildirilib ki, Prezident İlham Əliyevin 2021-ci il iyulun 7-də imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanı Vətən müharibəsinin yekunu olaraq ərazi bütövlüyümüzün daha bir təzahürü, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların yeni mərhələsidir. Qeyd olunub ki, hazırda respublikamızın qarşısında duran ən vacib məsələ doğma torpaqlarından köçkün düşən insanların öz yurd yerlərinə qayıdışını həyata keçirmək, həmin ərazilərin ölkənin iqtisadi sisteminə inteqrasiyasını təşkil etməkdən ibarətdir.

***

Siyəzən rayon Heydər Əliyev Mərkəzində Quba-Xaçmaz RGİİ-nin Siyəzən rayonu üzrə sektoru və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsi ilə birgə "Qeyri-ənənəvi dini baxışların milli birliyə və dini təhlükəsizliyə təsirləri" mövzusunda görüş keçirilib.

Çıxışlarda bildirilib ki, cəmiyyətimizin, xüsusilə gənclərin dini radikalizm təhlükəsindən qorunması, radikal dini cərəyanların təsiri altına düşməməsi üçün maarifləndirici tədbirlərin mütəmadi keçirilməsi vacibdir. Bu sahədə təhsil müəssisələri, gənclər təşkilatları, dini icmaları, bir sözlə, cəmiyyətin hər bir fərdi aktiv fəaliyyət göstərməlidir.

***

Ağdam rayon MKS-nin 19 saylı Üçoğlan kənd kitabxanasında



Astara rayon Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyev və müstəqil dövlətçiliyimiz" mövzusunda tədbir təşkil edilib. Heydər Əliyevin respublikaya rəhbərliyə başlamasına (1969) həsr olunan film nümayiş etdirilib.

**Hazırladı: N.Məmmədli**

# "O olmasın, bu olsun" tələbələrin ifasında



C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Dövlət Universitetinin (NDU) müəllim və tələbələri Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasını nümayiş etdiriblər.

Nümayişdən əvvəl NDU-nun rektoru Elbrus İsayev çıxış edərək təhsil ocağının hazırladığı səhnə əsərinin muxtar respublikanın 100 illiyinə töhfəsi olduğunu bildirib.

NDU-nun konservatoriyası və Musiqi Kollecinin müəllim və tələbələri tərəfindən səhnələşdirilən tamaşanın bədii rəhbəri və quruluşçu rejissoru Əməkdar artist Mübariz Əsgərov, dirijoru Xalq artisti, professor Çingiz Axundov, quruluşçu rəssamı Əməkdar rəssam Cavid İsmayılovdur.

Ümumilikdə 42 müəllim və tələbənin iştirak etdiyi tamaşanı universitetin simfonik orkestri müşayiət edib.

# Naxçıvan şəhəri haqqında monoqrafiya çapdan çıxıb

Naxçıvan Dövlət Universitetinin prorektoru tarix üzrə fəlsəfə doktoru dosent Arzu Abdullayevin "Naxçıvan şəhəri: tarixi-siyasi və mədəni inkişafı XIX əsr" kitabı çap olunub.

Naxçıvan MR-in yaradılmasının 100 illik yubileyinə həsr olunmuş kitabda bu diyarın tarixi, siyasi, mədəni və ictimai mərkəzi olan Naxçıvan şəhərindən söhbət açılır. Şəhərin XIX əsr tarixi kompleks şəkildə araşdırılır, buranın Rusiya imperiyası tərəfindən işğalı, bölgənin inzibati-ərazi quruluşunda dəyişikliklər və idarəçilik sistemi, sosial-iqtisadi və mədəni həyatı, ermənilərin Naxçıvana köçürülməsi elmi dövriyyəyə yeni cəlb edilmiş sənəd və materiallar əsasında öyrənilir.

Nəşrin elmi redaktoru akademik Nərgiz Axundova, rəyçiləri professorlar Oqtay Sultanov və Zeynal Həsənalıyevdir.

# Dövlət Simfonik Orkestrinin "Yay axşamı" konserti





M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Yay zalı" uzun fasilədən sonra fəaliyyətini bərpa edib.

İyulun 7-də "Yay zalı"nda Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimov) iştirakı ilə mövsümün bağlanışına həsr olunmuş "Yay axşamı" adlı konsert keçirilib.

Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və solistlər – Əməkdar artist Ramil Qasımov (tenor), Aytac Şıxəlizadə (mezzo-soprano), Nəzrin Aslanlı (violin), Məmməd Rəcəbli (klarnet) çıxış ediblər.

Proqramda G.Rossini, J.Straus, J.Bize, Z.Abreu, M.Ponce, D.Şostakoviç, A.Şou, A.Marquez, Niyazi, T.Quliyev və E.Mansurovun əsərləri səsləndirilib.

# Azərbaycanlı bəstəkarın Almaniya və ABŞ-də musiqi albomu buraxılıb

Bəstəkar Xədicə Zeynalovanın Almaniya və ABŞ-də "Ave Maria" adlı konserti keçirilib və musiqi albomu işıq üzü görüb. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.




Layihə haqqında danışan sənətçi deyib: "Bu əsərin özəlliyi ondan ibarətdir ki, mən Şərqlə Qərb arasında əlaqə yaratmağa çalışmışam. Azərbaycan xalq musiqisinin ritmlərindən, muğam elementlərindən də istifadə etmişəm".

Qeyd edək ki, xalqlar arasında sülhə həsr olunan layihə Almaniyanın Mədəniyyət Fondu, "Lippe" Regional Assosiasiyası və "Bridge of Sound" kamera ansamblının maliyyə dəstəyi ilə həyata keçirilib. Səsyazma 2023-cü ilin avqustunda Marienmünster şəhərində aparılıb.

Xədicə Zeynalova "Bridge of Sound" ansamblının bədii rəhbəri, "Harmony of Sound" beynəlxalq musiqi festivalının təsisçisidir. O, hazırda Almaniyada yaşayır və Azərbaycan musiqisinin təbliği istiqamətində konsertlərin təşkili ilə məşğul olur.

Bəstəkarın əsərləri müxtəlif ölkələrdə keçirilən müasir musiqi festival və konsertlərində səsləndirilib.

Bəstəkar Almaniyada təqaüd və mükafatlara, eləcə də Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin təltiflərinə layiq görülüb.

**Lalə**

# "Tıq-tıq xanım" tamaşası parkda nümayiş olunub

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə iyulun 7-də Xətai rayonunda yerləşən Heydər Əliyev Parkında "Tıq-tıq xanım" tamaşası nümayiş olunub.




Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzinin (Sabunçu rayonu Maştağa qəsəbəsi) "Kilimarası" kukla teatrının tamaşası azyaşlıların asudə vaxtının səmərəli təşkili məqsədilə göstərilib.

Nümayişdən əvvəl nağıl qəhrəmanlarını canlandıran maskotlar uşaqlarla əyləncəli oyunlar təşkil ediblər.

Sonra uşaqlar səhnə işini izləyiblər. "Tıq-tıq xanım" balaca tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Hamburq Universitetində musiqi alətlərimizlə bağlı mühazirə

Almaniyanın qabaqcıl ali təhsil ocaqlarından olan Hamburq Universitetinin Musiqişünaslıq fakültəsində təhsil alan Bakı Musiqi Akademiyasının məzunu, sənətşünaslıq üzrə fəlsəfə doktoru Cəmilə Abdullayeva (Manafova) iyulun 5-də universitetdə maraqlı bir təqdimat edib.

O, alman dilində mühazirəsində Azərbaycanın qədim milli nəfəs alətləri balaban, zurna və tütəyin tarixi etimologiyası, hazırlanma üsulları və ifa texnikasından ətraflı söz açıb.

Universitetin professor-müəllim heyətinin, yerli və xarici ölkələrdən olan tələbələrin dinlədiyi mühazirədə bu alətlərin solo və ya qrup şəklində ifası, dizaynı, səslənmə və texniki imkanları, dinləyicilərin estetik zövqünün formalaşdırılması baxımından əhəmiyyəti vurğulanıb. Milli nəfəs alətləri – balaban, zurna və tütəyin Azərbaycan bəstəkarlarının opera, operetta, sonata, pyes, konsert və digər musiqi janrlarında istifadəsi, orkestrlərin səslənmə koloritinin milli çalarlarla zənginləşdirilməsində rolundan da bəhs edilib.

Mühazirə nəfəs alətləri ilə bağlı video və audioyazılarla müşayiət olunub.

# AzMİU tələbələrinin "Məzun günü"

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) tələbələrinin "Məzun günü" keçirilib.

Mərasimdə çıxış edən AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova diqqətə çatdırıb ki, 2023/2024-cü tədris ilində universitetdən 2 mindən çox tələbə məzun olur. Onlardan 12 nəfəri (3 bakalavr və 9 magistr) universiteti fərqlənmə diplomu ilə bitirir. AzMİU-da ümumilikdə bakalavriat səviyyəsində 27 ixtisas üzrə tədris aparılır.

Qeyd olunub ki, bu tədris ilində müvafiq tələbat nəzərə alınaraq dizayn ixtisası üzrə ayrıca fakültə (Memarlıq fakültəsindən ayrılaraq) yaradılıb.

Xarici universitetlərlə həyata keçirilən ikili diplom proqramları çərçivəsində yeni uğurlar əldə olunub. İngiltərənin Vestminster Universiteti ilə ikili diplom müqaviləsi imzalanıb və bununla bu cür proqramların sayı 6-ya çatıb. Bundan əlavə, universitetin 4 ixtisası üzrə beynəlxalq akkreditasiya əldə edilib.




Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov və digər çıxışçılar məzunları təbrik ediblər.

Çıxışlardan sonra rektor və mərasimin fəxri qonaqları AzMİU-nun müxtəlif fakültələrini əla qiymətlərlə bitirmiş tələbələrə fərqlənmə diplomlarını təqdim ediblər.

# Mərkəzi İncəsənət Məktəbinə yeni direktor təyin edilib

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinə yeni direktor təyinatı olub. Mədəniyyət naziri Adil Kərimlinin müvafiq əmri ilə bəstəkar, pianoçu, sənətşünaslıq üzrə fəlsəfə doktoru Könül Qabil qızı Hüseynova bu vəzifəyə təyin edilib.



Könül Hüseynova 1998-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini fərqlənmə diplomu ilə bitirib. Həmin il Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Fortepiano şöbəsinə (professor Y.Sabayevin sinfi) qəbul olunub. BMA-nın bakalavr və magistr pillələrini fərqlənmə diplomları ilə başa vurub. 2008-ci ildə "Azərbaycan musiqi mədəniyyətinin inkişafında Fərhad Bədəlbəyli yaradıcılığının yeri və rolu" mövzusunda namizədlik (fəlsəfə doktorluğu) dissertasiyası müdafiə edib. 2004-cü ildən BMA-da pedaqoji fəaliyyət göstərir.

Klassik musiqi janrlarında əsərlər və vətənsevərlik ruhunda mahnılar bəstələyib. Azərbaycan musiqi mədəniyyətinə dair elmi əsərlərin müəllifidir.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2021-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub.

Qeyd edək ki, K.Hüseynova şəhid pilot, polkovnik-leytenant Rəşad Atakişiyevin həyat yoldaşıdır.

# Teatrlar pərdələri bağlayır

## Mövsümə necə və nə ilə yekun vurulur?



Daha bir teatr mövsümü də, beləcə, başa çatır. Yayın bu cırhacırında məsələyə soyuq başla nəzər salsaq, sözsüz ki, mövsüm ərzində maraqlı, yaddaqalan, tamaşaçı diqqətini cəlb edən teatr xəbərləri oldu. Amma ümumilikdə sənət hadisəsindən bəhs etməyə çətinlik çəkirik...

Mədəniyyət Nazirliyinin dəstəyi ilə bir sıra teatrlar xaricdə qastrollarda, festival və konfranslarda iştirak etdilər. Bundan başqa, nazirliyin təşkilatçılığı ilə teatrların regionlarda qastrolları bu mövsümdə də davam etdi. Həmçinin ölkə miqyasında bir sıra mədəniyyət layihələrində, bədii proqramlarda teatr kollektivləri də yer aldılar.

Bununla yanaşı, cari teatr mənzərəsində, repertuar tərtibindən təqdimatadək yenə pərakəndəlik özünü göstərdi. Buraya xüsusilə eyni əsərlərin fərqli teatrlarda qurulmasını aid edə bilərik.

Amma bütün bu və digər nüanslara rəğmən ölkədə fəaliyyət göstərən sənət ocaqları 151-ci teatr mövsümünü ümumən rəngarəng etməyə çalışdılar. Mövsümün yekunları, özəlliklə teatrların beynəlxalq festivallarda iştirakı və qastrolları barədə ayrıca yazımız olacaq. Hələliksə, pərdələrini bağlayan (və bağlamağa hazırlaşan) teatrlarla bağlı ümumi icmalı təqdim edirik.

***

Bildiyimiz kimi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası əsaslı təmir-bərpa prosesindədir. Bu səbəbdən il ərzində teatr tamaşaçılarını fərqli məkanlarda qarşılayıb. Yəqin həm də bu səbəbdən sənət ocağı operasevərlərlə nisbətən erkən sağollaşıb. Mövsümün son tamaşası olaraq iyunun 20-də Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası (quruluşçu rejissor Əməkdar incəsənət xadimi Hafiz Quliyev) Opera studiyasında göstərilib.

Mövsümün sonunda Akademik Opera və Balet Teatrı adına çox əlamətdar hadisəni qeyd etməliyik. Teatrın balet truppası bu günlərdə Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə İtaliyanın Genuya şəhərində keçirilən "Nervi Rozza Music Ballet Festival"ında iştirak edir. Balet artistlərimiz nüfuzlu sənət bayramında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletini təqdim ediblər.

***

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı mövsümü iyunun 30-da başa vurub. Teatrda həmin gün Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyası (quruluşçu rejissor Xalq artisti Azərpaşa Nemətov) oynanılıb.

Repertuarını yeni tamaşalarla zənginləşdirən Milli Dram Teatrı bu mövsüm beynəlxalq sənət əlaqələrini də inkişaf etdirib. O cümlədən 28–30 iyun tarixlərində II Rusiya Milli Teatrları Konqresində və Rusiya Milli Teatrlarının Birinci Yay Festivalında (Vladimir vilayətinin Suzdal şəhərində) təmsil olunub.

***

Cari mövsüm Azərbaycan Dövlət Akademik Musiqili Teatrı üçün də məhsuldar olub. Teatr təmsilçiləri 114-cü mövsümün sonunda da ənənəvi olaraq "Premeyeralar paradı" elan edib və bir neçə yeni səhnə işini tamaşaçı ilə görüşdürür.

Mövsümün son tamaşası isə 19 iyulda nümayiş olunacaq. Bu, Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" (quruluşçu rejissor Xalq artisti Cənnət Səlimova) musiqili komediyasıdır.

***

Akademik Rus Dram Teatrı da artıq mövsümü başa vurub. Mövsüm ərzində bir premyera edən teatr xaricdən qonaq kollektivlər də qarşılayıb, özü də beynəlxalq sənət tədbirlərinə qatılıb. O cümlədən may ayında ilk dəfə "Melixovo baharı" Beynəlxalq Teatr Festivalında (Moskva vilayəti, A.P.Çexovun "Melixovo" muzey-qoruğu) iştirak edib.

Yaradıcı heyət tamaşaçıları ilə Georq Büxnerin eyniadlı pyesi əsasında ərsəyə gətirilən "Voysek" tamaşası ilə (quruluş: Xalq artisti Aleksandr Şarovski) iyunun 30-da sağollaşıb.

***

Yuğ Dövlət Teatrı üçün 35-ci mövsüm həm premyeralar, həm də səfərlər baxımından yaddaqalan olub. Teatr bu yaxınlarda (10-14 iyun) Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyəti Günlərində də iştirak edib. Kollektiv mövsümə iyulun 14-də Xalq yazıçısı Anarın "Asılqanda işləyən qadının hekayəti" əsəri əsasında hazırlanan "Asılqan" (quruluşçu rejissor Əbdülqəni Əliyev) tamaşasının nümayişi ilə yekun vuracaq.

***

Azərbaycan Dövlət Kukla Teatrında da mövsümün bağlanışı iyulun 14-nə nəzərdə tutulub. Həmin gün balaca tamaşaçılara teatrın bu mövsümdəki premyeralarından biri – Xanımana Əlibəylinin mənzum pyesi əsasında "Dovşanın ad günü" tamaşası (quruluşçu rejissoru Səidə Haqverdiyeva) təqdim ediləcək.

***

Azərbaycan Dövlət Pantomima Teatrı isə yubiley mövsümünü başa vurur. 30 yaşını qeyd edən kollektiv mövsümün son akkordunu iyulun 14-də V.Şekspirin "Romeo və Cülyetta" əsəri əsasında hazırlanan (quruluşçu rejissor Ceyhun Dadaşov) eyniadlı pantomima tamaşası ilə vuracaq.

***

Şuşa Dövlət Musiqili Dram Teatrı sadiq tamaşaçıları qarşısında cari mövsümdə son olaraq iyulun 19-da sonuncu premyeraları – Nəcəf bəy Vəzirovun eyniadlı əsəri əsasında səhnələşdirilən "Dağılan tifaq" (quruluşçu rejissor Əməkdar artist Yadigar Muradov) ilə çıxış edəcəklər.

***

Bakı Uşaq və Gənclər Teatrında mövsümə premyera ilə yekun vurulacaq. İyulun 15-də teatr təmsilçiləri Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində "Arvadım olun" tamaşasını (quruluşçu rejissor Elşən Zeynallı) göstərəcək. Fransız yazıçısı Raffi Şartın əsəri əsasında səhnələşdirilən tamaşa böyüklər üçün nəzərdə tutulub.

***

Paytaxtdan kənarda fəaliyyət göstərən teatrlar da mövsüm ərzində aktivlik nümayiş etdirməyə çalışıblar.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı mövsümünə iyulun 5-də Həsənəli Eyvazlının "Araz sahilində doğan günəş" əsəri əsasında hazırlanan eyniadlı tamaşa (quruluşçu rejissor Mir Qabil Əkbərov) ilə yekun vurub. Onu da qeyd edək ki, teatr bu tamaşa ilə muxtar respublikanın bütün rayon mərkəzlərində çıxış edib. Teatr bu mövsüm Türkiyədə qastrolda da olub.

***

Salyan Dövlət Kukla Teatrı təmsilçiləri iyulun 6-da 30-cu teatr mövsümlərini Xanımana Əlibəylinin "Dovşanın ad günü" pyesi əsasında hazırlanan eyniadlı tamaşa ilə (quruluşçu rejissor: Əməkdar mədəniyyət işçisi Laləzar Hüseynova) bağlayıblar.

***

Gəncə Dövlət Kukla Teatrının kollektivi isə son nümayişlərini iyulun 10-una nəzərdə tutub. Teatrın son premyeralarından olan Korney Çukovskinin "Milçək Vizilçək" kukla tamaşası (quruluşçu rejissoru Zülfiyyə Əliyeva) göstəriləcək.

***

Qusar Dövlət Ləzgi Dram Teatrı sevimli tamaşaçıları ilə mövsümdə axırıncı görüşünü iyulun 17-nə təyin edib. Həmin gün Qusar şəhərindəki general Mahmud Əbilov adına meydanda Mirzəli Rüstəmovun "Yeni müdir" tamaşası (quruluşçu rejissor: Bağır Əhmədov) nümayiş olunacaq.

***

Qax Dövlət Kukla Teatrı yazıçı-dramaturq Vüqar Haqverdiyevin "Qarınqulu ayı balası" nağılına verdiyi özünəməxsus quruluşunu iyulun 15-də təqdim edəcək. Xatırladaq ki, bu, Araz Mehrablının quruluş verdiyi tamaşanın premyera nümayişidir.

***

Füzuli Dövlət Dram Teatrı da mövsümə "Qarınqulu ayı balası" nağıl-tamaşası ilə yekun vuracaq. Quruluşçu rejissoru Emin Abışov olan tamaşanın nümayişi iyulun 13-nə nəzərdə tutulub.

***

Şəki Dövlət Dram Teatrı da ənənəsinə sadiq qalaraq mövsümünə premyera ilə yekun vuracaq. Özü də ölkə teatrları içərisində ən gec. Xalq yazıçısı İlyas Əfəndiyevin məşhur əsəri əsasında teatrın quruluşçu rejissoru Elvin Nuri tərəfindən səhnələşdirilən "Sən həmişə mənimləsən..." ("Boy çiçəyi") tamaşası iyulun sonlarında nümayiş olunmalıdır. Onu da qeyd edək ki, tamaşa İlyas Əfəndiyevin 110 illik yubileyi münasibətilə hazırlanıb.

***

Qazax Dövlət Dram Teatrından da son xəbərimiz premyera ilə bağlıdır. Teatr Əli Əmirlinin "Onun iki qabırğası" komediyasına müraciət edərək, onu yeni səhnə yozumunda hazırlayıb. Birhissəli məişət komediyasına teatrın baş rejissoru Əməkdar artist Musa Eyyubov quruluş verib. Premyera iyulun 13-də olacaq və bununla da mövsümə yekun vurulacaq.

***

Lənkəran Dövlət Dram Teatrının "Cəmilə" romantik dramı isə iyulun 19-da son nümayiş kimi nəzərdə tutulub. Məşhur qırğız yazıçı Çingiz Aytmatovun eyniadlı povesti əsasında səhnələşdirilən tamaşanın quruluşçu rejissoru İmran Ali Qurbandır.

***

Sumqayıt Dövlət Dram Teatrı isə mövsümün sonu olaraq iyulun 16-da repertuarındakı "qocaman" səhnə nümunələrindən birini – "Ocaq" tamaşasını təqdim edəcək. Türkiyə yazıçısı Turqut Özakmanın eyniadlı əsəri əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmovdur.

**Həmidə Rüstəmova**

## Yolun ki səhnədən düşdü

İncəsənət elə bir yaradıcılıq sahəsidir ki, ömrünü ona həsr edənlərin qəbul edilmək, tanınmaq, sevilmək, dəyərləndirilmək kimi umacağı var. Təəssüf ki, bu sadalananların hər biri sənətə gələn hər kəsin qismətinə düşmür. Bəzən qəbul edilən tanınmır, tanınanın sevilmək şansı olmur, ya da sevilənin əməyi, istedadı layiqincə dəyərləndirilmir. Hər nədənsə, səhnəmizdə, çağdaş teatrımızda onlarla (bəlkə də yüzlərlə) aktyor, aktrisa var ki, ömür verdikləri sənətin dəyərini almayıblar. Ən azından onların mətbuat sarıdan qədirbilənlik umacağı var ki, biz də "Mədəniyyət" qəzeti olaraq ömür yolunu səhnədən salıb öz cığırından çıxmayan sənətçilərmizi daha yaxından tanımaq və tanıtmaq niyyətindəyik.

# "İllərimi səhnəyə vermişəmsə, deməli, qismət beləymiş..."

Beləliklə, "Yolun ki səhnədən düşdü" silsiləsindən ilk qonağımız Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktrisası Gülcahan Salamovadır.

Həmişə sadə görünüşlü, üzündə ciddi təbəssüm olan, hətta səhnədən, ekrandan bizə baxanda da öz tamaşaçılarından, demək olar ki, heç fərqlənməyən bir xanım. Teatrın qrim otağında üzbəüz əyləşib söhbət edirik.

*– Gülcahan xanım, necə oldu ki, yolunuz səhnədən düşdü…*

– Sənət, peşə arzularım bəlkə də bir-birindən çox uzaq idi. Uşaq olanda üç sənətdən yaman xoşum gəlirdi: bağçada tərbiyəçi, hüquqşünas, bir də aktyor…

*– Maraqlıdır…*

– Görürsünüz, bir-birindən tamam fərqli sahələrdə özümü görürdüm…

*– Məncə, ilk baxışda nə qədər uzaq görünsələr də, onları birləşdirən incə bir tel var.*

– Bəlkə də… Məktəbdə yaxşı oxuyurdum.

*– Yəqin o illərin özfəaliyyət dərnəyində də çıxış etmisiniz?*

– Yox… Hətta universitetə sənəd verəndə də qabiliyyət imtahanına təkcə hazırlaşdım. Sadəcə, maraqlandım ki, neyləmək lazımdır, məndən nə soruşacaqlar, özüm öyrəndim hamısını…

*– Və elə ilk cəhddən də qəbul oldunuz…*

– Sizə bir sirr açım. Aktrisa olmağı arzulasam da, tamaşaçılardan qorxurdum. Bizim teatrın aktrisası Səmayə Musayeva qonşumuza gəlib-gedirdi. Bir gün ondan soruşdum ki, aktyor səhnədə özünü necə hiss edir? Səmayə xanım səhnə arxasındakı həyəcandan danışdı, sonra dedi ki, salon dolu olanda biz səhnədə daha həvəslə çıxış edirik, elə ki, tamaşaya az adam gəlir, biz də həvəssiz oynayırıq. O danışdıqca, mən də uşaq sadəlövhlüyü ilə fikirləşirdim ki, kaş mən səhnəyə çıxanda salonda tamaşaçı az olaydı; adam az olsa, mən də həyəcanlanmaram (gülür).

*– Qəribə sirriniz varmış…*

– İndiyədək heç bir müsahibəmdə bunu deməmişəm. Orta məktəbi qurtarandan sonra iki il bağça müəllimliyinə, pedaqoji texnikuma sənəd verdim və… kəsildim. Üçüncü il fikirləşdim ki, daha qorxmaycağam, Mədəniyyət və İncəsənət Universitetinə sənəd verəcəyəm. Qabiliyyət imtahanında təmsil söylədim, mahnı oxudum, tapşırılan etüdü yerinə yetirdim. Sonda da məlum oldu ki, hər birindən 5 almışam.

*– Musiqili komediya aktyorluğu ixtisası üzrə təhsil almısınız. Sənət müəlliminiz kim olub?*

– Vaqif Ağayevin (görkəmli aktoyrumuz Əliağa Ağayevin oğlu) kursunda oxumuşam. Axırıncı kursda oxuyanda bizim kursu Rafiq Atakişiyevə verdilər. Rafiq müəllim o zaman Musiqili Komediya Teatrında işləyirdi və "Qızıl toy" tamaşasını yenicə səhnələşdirmişdi. Elə bizim diplom tamaşamız üçün də "Qızıl toy"u seçdi, mənə də Aygün rolunu tapşırdı. Universiteti bitirib teatra gələndə də məni "Qızıl toy" tamaşasına daxil etdilər. Böyük səhnədə də ilk rolum Aygün oldu.



*– Əsas məsələ: tamaşa salonunu dolu görəndə qorxmadınız ki?*

– Yox. Yavaş-yavaş alışdım…

*– Səhnəyə də alışdınız, bir də gördünüz ki…*

– Hə, bir də gördüm ki, ömür yarı olub, bu teatra da illərimi vermişəm.

*– Bəs qazancınız nə olub?*

– Bir-birindən maraqlı rollar, illərlə repertuardan düşməyən tamaşalarda məşğulluq, bir də tamaşaçı alqışı, tamaşaçı sevgisi.

*– Bunlar "mən sənətimdən yarıdım" deməyə kifayət edir?*

– …

*– Gülcahan xanım, siz susursunuz, ona görə də mən öz fikrimi deyəcəyəm. Əgər müəyyən qiymətləndirmə sistemi varsa, o zaman gərək həmin bölgü ədalətli ola.*

– Bəzən adamın ürəyi sınır, fikirləşirsən ki, niyə belə oldu? Axı, mən sənətə illərimi verdim. Deyim ki, bir neçə il Prezident mükafatçısı olmuşam, "Fəxri mədəniyyət işçisi" nişanı ilə təltif olunmuşam. İşləyirəm, tamaşalarda varam. Lap bu yaxınlarda mövsümün son premyerasını təhvil verdik: Anarın "Adamın adamı" tamaşasında Balaxanım obrazını mənə veriblər. Seriallara, filmlərə çəkilirəm. Düzdür, filmlərin çoxu komediyadır.

*– Amma aralarında "Bir qadın" serialında oynadığınız Firuzə də var.*

– Elədir. Firuzə bəxtəvər qadın deyil, hətta övladını da itirir serialın sonunda.

*– Bildiyim qədər, komik vəziyyət seriallarında uğurlarınız az deyil...*

– "Niyə?" serialına çəkiləndən sonra küçədə, avtobusda uşaqlar məni göstərib deyirdilər ki, "bax, bax, Südabə xala!". Bəzən də adamlar mənimlə rastlaşanda tanış olmaq istəyir, rollarım barədə suallar verirlər.





Düzdür, ictimai yerdə belə münasibət görəndə diqqəti cəlb etdiyim üçün bir az utanıram. Amma bu da işimizin mükafatı, xalqın sevgisidir.

*– Gülcahan xanım, şəxsi sual versəm, incimƏzsiniz?*

– Çalışaram…

*– Bildiyim qədər, təksiniz…*

– Elədir.

*– Peşman deyilsiniz?*

– 50:50-yə. Bir tərəfdən fikirləşirəm ki, bütün qərarlarımı verməkdə sərbəstlik, məişət qayğılarından qismən azad olmaq baxımından belə yaxşıdır. Amma xəstələnəndə, ya da ürəyini boşaltmağa, dərdləşməyə adam tapmayanda peşman olursan ki, kaş ailə quraydım, indi tək olmazdım.

*– Niyə ailə qurmadınız? Qarşınıza çıxanlar sizi "ya səhnə, ya ailə" seçimi qarşısında qoydular?*

– Yox. Boynuma alım ki, teatra təzə gələn vaxtlarımda evlilik məni qətiyyən düşündürmürdü, karyera hayında idim. Sonralar da ürəyimə yatan adamla rastlaşmadım. Sevmədiyin, ürəyincə olmayan adamla necə birlikdə yaşamaq olar?

*Hərçənd yaşayanlar var, amma mən sizin fikrinizə şərikəm.*

– Deməli, mənim də qismətim belə yazılıbmış. Hərçənd mən özümü tənha saymıram. Çoxuşaqlı ailədə böyümüşəm. 4 qardaş, 2 bacı olmuşuq. Bu gün bacımın balalarını, nəvələrini öz balam kimi sevirəm.

*– Keçmişə boylananda nə üçün darıxırsınız?*

– Uşaqlığım üçün. Rəhmətlik anam Ofeliya Aslanı çox sevərdi. Onu bir obrazının adı ilə Matan çağırardı. Mən ilk dəfə deyəndə ki, aktrisa olacağam, anam soruşdu ki, Matan kimi? Təəssüf ki, universiteti bitirməyimə az qalmış anam vəfat etdi, məni səhnədə görmək ona qismət olmadı. Bir də… Bacım üçün darıxıram. COVİD 19-un sonuncu dalğası gələndə ikimiz də yoluxduq. Mən sağaldım, amma bacım yox…

***

Aktrisa Gülcahan Salamovanı çağdaş Azərbaycan səhnəsindən, ekranından xəbərsiz birinə göstərsək, onları lap elə şəxsən tanış etsək, həmin şəxsin bəlkə ağlına da gəlməz ki, Gülcahan xanım aktrisadır, özü də komediya əsərlərində yetişib püxtələşmiş, hər cür tipaj yaratmağa qabil aktrisa, – inanmaz. Çünki Gülcahan Salamova yolu səhnədən düşdüyü üçün, özünü həmin səhnədə tapdığı üçün xoşbəxt ola bilən, qalmaqaldan, sənətdə nəyisə qamarlamaq uğrunda mübarizədən, haqlı-haqsız iddialardan uzaq sənətçidir. Gülbikəsi, Gülnazı, Aygünü, Qəndabı, Fatması, Anaxanımı, Qəməri, Gülpərisi, Gövhəri, Firuzəsi, Südabəsi ilə hər birimizə yaxın rəfiqə, doğma bacı təəssüratı bağışlayan xanımdır. Bəlkə də əsl sənətçi xanım elə onun kimi olmalıdır: təvazökar, sakit təbiətli, işinin ustası...

**Gülcahan Mirməmməd**

# Üzeyir bəyin "Firdovsi" kantatası necə yaranıb?

Müsəlman Şərqində ilk operanın müəllifi olan dahi bəstəkar, musiqişünas Üzeyir Hacıbəyli 1910-cu ildə növbəti irihəcmli əsərini – görkəmli fars-tacik şairi Əbülqasım Firdovsinin (934–1020) "Şahnamə" poemasının motivləri əsasında "Rüstəm və Söhrab" operasını yazır.

"Rüstəm və Söhrab" Firdovsinin "Şahnamə" poemasının ən qəmli dastan-rəvayətidir. Dastanda ata-oğul bir-birini tanımadan döyüş meydanında rastlaşırlar və nəticədə bilmədən ata oğlunu öldürür...

Üzeyir Hacıbəylinin bu dastandan təsirlənərək yaratdığı "Rüstəm və Söhrab" operası həmin dövrdə bir neçə dəfə nümayiş olunub, sonra isə səhnələrdən götürülərək unudulub. Lakin Üzeyir bəy həmişə Firdovsi yaradıcılığına rəğbət bəsləyib.

1934-cü ildə Firdovsinin 1000 illik yubileyi bir sıra ölkələrdə, o cümlədən də Azərbaycanda geniş qeyd edilib. Dahi şair-dramaturq Hüseyn Cavid "Şahnamə"nin motivləri əsasında "Səyavuş" mənzum faciəsini yazır. Üzeyir bəy isə bu münasibətlə ikihissəli bir kantata ərsəyə gətirir.

"Firdovsi" kantatası musiqişünaslar tərəfindən maraqla qarşılanır. Yubiley münasibətilə Moskvada təşkil olunan tədbirdə Azərbaycan ziyalıları da iştirak edirlər. Heyət Bakıya qayıdır, onlarla birgə İranın tanınmış musiqişünas-alimi Səid Nəfisi də paytaxtımıza gəlir. O, Üzeyir bəylə görüşür. Onlar bir-biri ilə farsca danışırlar. Səid Nəfisi dahi bəstəkarın bu dildə səlis danışmasından təəccüblənir. Bəstəkardan fars dilini necə öyrəndiyini xəbər alır. Üzeyir bəy gülümsəyir... Çünki o, uşaq ikən mollaxanada fars dilini öyrənmiş, həmçinin gürcü və ərəb dillərini də, az da olsa, mənimsəmişdi. Üzeyir bəy rus dilini isə çox yüksək səviyyədə bilirdi. Bu dilləri bilmək Üzeyir bəyin həm həyatında, həm də yaradıcılığında onun köməyinə çatmışdı. Eyni zamanda yaradıcılığı uğurlarına öz müsbət təsirini göstərmişdi...

"Firdovsi" kantatası yazıldığı dövrdə dəfələrlə ifa olunmuşdu. Lakin sonralar bəstəkarın yeni musiqi əsərləri ortaya çıxdıqca bu kantata daha az ifa edilir və yavaş-yavaş unudulur. Üzeyir Hacıbəylinin Ev-Muzeyində 90 yaşlı bu əsərin bəzi əlyazmaları qorunur.

**Selcan Heydərova**
**Üzeyir Hacıbəylinin Ev-Muzeyinin böyük elmi işçisi**

# On il Dədə Ələsgərdən dərs almışdı...

Azərbaycan aşıq sənətinin inkişafı və təbliğində əməyi keçən ustadlardan biri də Göyçə saz-söz mühitinin yetirməsi Aşıq Əsəddir. Dədə Ələsgərdən aşıqlığın sirlərini əxz edən sənətkar gözəl ifası və dərin məzmunlu bədii yaradıcılığı ilə ölkəmizdə məşhur olub. Bu il ustad aşığın anadan olmasının 150 illik yubileyidir.

Əslən Tovuz rayonunun Bozalqanlı kəndindən olan Əsəd Əhməd oğlu Rzayev 1874-cü ildə Göyçə mahalının Qaraqoyunlu kəndində dünyaya göz açıb. Əsəd gənc ikən atası dünyadan vaxtsız köçür. Bu qəfil itkidən ailənin güzəranı ağırlaşır. O, dolanışıq ucbatından bir neçə il nökərçilik edir. Vaxt tapanda elin toy məclislərində iştirak edir. Saz çalınarkən qaynar təbi cuşa gəlir, bədahətən şeirlər söyləyir. Yanıqlı ifası ilə diqqətləri özünə çəkir, el-obada sevilir. Amma bu ulu sənətin dəyişməz bir ənənəsi var – ustad və şəyird. O da bu sənətə dərindən yiyələnmək üçün mütləq ustad yanında olmalı idi. Gənc Əsədin sənətdə bəxti üzünə gülür, böyük saz-söz ustadı Aşıq Ələsgərin şəyirdi olur. On ilə yaxın ustadı ilə birlikdə məclislər yola verir. Şaqraq, məlahətli avazı ilə sənətsevərlərin könlünü oxşayır. Dədə Ələsgər gündən-günə püxtələşən Əsədə rüsxət verir. Beləliklə, Əsəd 1895-ci ildən müstəqil aşıqlığa başlayır, ağır el məclislərini yola verir. Eyni zamanda aşiqanə lirik şeirlər qələmə alır, həm söz sənətkarlarının və həm də öz şeirlərini oxuyur.

Aşıq Əsədin uğurlu sənət yolu çox da uzun çəkmir. 1918-ci ildə daşnak ordusunun zabiti Selikovun öldürülməsində günahkar bilinir. Bu səbəbdən qardaşı Məhəmmədlə birgə həbs olunur. Müsavat partiyası Göyçə təşkilatının köməyi ilə həbsdən qaçırılır. Sovetləşmədən sonra bir müddət ordu sıralarında xidmət edir. Ordudan qayıtdıqdan sonra özünü təhlükəsiz olmadığını hiss etdiyindən Göycədən köçmək qərarına gəlir. Ata-baba yurdu – Tovuz rayonunun Bozalqanlı kəndində məskunlaşır. O, mülayim və insansevər xarakteri, bənzərsiz sənəti ilə kənd camaatı arasında hörmət qazanır. Bu eldə də toy-düyünlərdə başa çəkilir. Sənətinin şöhrəti Tovuz elinin hüdudlarını aşır. 1928-ci ildə Azərbaycan aşıqlarının birinci qurultayında iştirak edən sənətkar yüksək ifaçılıq məharətinə görə mükafata layiq görülür. 1938-ci ildə Moskva şəhərində ilk dəfə keçirilən Azərbaycan incəsənəti ongünlüyündə iştirak edir. Yenə də sənəti ilə diqqətləri özünə cəlb etməyi bacarır, "Şərəf nişanı" ordeni ilə təltif olunur. İfaçılıq qabiliyyətini yüksək qiymətləndirən Xalq şairi Səməd Vurğun ona "Aşıqların sultanı" adını verir. Aşıq Əsədin bədii yaradıcılığı da ictimaiyyət arasında maraqla qarşılanır. Daha sonra Yazıçılar İttifaqına üzv qəbul edilir.

Folklorşünas Hümbət Əlizadə "Koroğlu" dastanının bir neçə qolunu, xalq dastanlarından bir çoxunu Aşıq Əsədin dilindən yazıya alıb. Onun yaxından köməkliyi sayəsində aşığın ilk şeirlər kitabı işıq üzü görüb. İkinci şeirlər kitabı isə çox sonralar, 1979-cu ildə çap olunub.

Aşıq Əsəd ustad sənətkar kimi Göyçə, Tovuz, Qazax bölgələrində onlarla aşıq yetişdirib. O həm də yaradıcı aşıq olub. "Kamal", "Nizami", "Aşıq Əsədin İncə xanımla deyişməsi", "Aşıq Əsədin Minayə xanımla deyişməsi" kimi nümunələr bu gün də el şənliklərində aşıqlar tərəfindən böyük maraqla oxunur və xalq tərəfindən rəğbətlə qarşılanır. Onun yüzlərcə qoşma və gəraylısı bu gün də aşıqların repertuarını bəzəyir. Aşıq Əsəd həmçinin muğam sənətinə maraq göstərib. El şənliklərində çox vaxt dinləyicilərin xahişi ilə xalq mahnıları ilə yanaşı, muğamlarımızı da ifa edib.



Araşdırmalarda Aşıq Əsədin sazının 17 pərdəli və 10 simli olduğu qeyd edilir. Yəni o zaman sazın 3 zil simi olduğu halda, onun sazında 4 zil sim olub. Əlbəttə, 4 simi barmaqda tutmaq sənətkardan böyük ustalıq tələb edir. O, "Zil Qaytağı" oxuyanda səsi şah və divani pərdələrin zillərinə qalxarmış. Sazı isə "xəttəbənd", yəni qolunun içi boş və içərisində muncuğaoxşar cisimlər olub.

Aşıq Əsəd ümumrespublika mədəniyyət tədbirlərində daim münsiflər heyətinin üzvü olub. Tiflis radiosunun 1936-cı ildə ilk verilişlərində, daha sonra Şota Rustavelinin yubileyi və digər mədəni tədbirlərdə Aşıq Əsədlə Aşıq Mirzə cütlüyünün parlaq çıxışları böyük alqışlarla qarşılanıb.

Onu da qeyd edək ki, Aşıq Əsəd yaxşı-yaman günlərində heç vaxt ustadı Dədə Ələsgəri unutmayıb. Böyük el şənliklərində daim onun yaradıcılığına müraciət edib və, ustadını ehtiramla yada salıb. Çağdaş və gələcək nəsillər üçün Aşıq Ələsgər ənənələrinin daşıyıcısı və təbliğatçılarından biri olub. Mənbələrdə o da qeyd olunur ki, sənətkara dövlət tərəfindən daim qayğı göstərilib. Hətta sovet Azərbaycanının rəhbəri Mircəfər Bağırov onu Bakıya dəvət etsə də, sənətkar Tovuz rayonunda qalmağı və ömrünü bu torpaqda başa vurmağı məqsədəuyğun hesab edib.

El-obasının sənətsevər ziyalıları ilə fəxr edən aşıq təbiətdən də böyük zövq alıb. Şeirlərində yurdunun təbiət gözəlliklərini səmimi bir dillə tərənnüm edib. Ustad Aşıq Ələsgərdən sənətin incəliklərini öyrənməsi, Gəncəbasar elində böyük şövqlə ağır məclislər yola salması onun sənət şöhrətini yüksəklərə aldırıb.

*Kamil bağban bağ becərər, gül əkər,*
*Sahibi var onun, üzə bilməzsən.*
*Sınar qol-qanadın düşərsən yerə,*
*Tutar səni qəhri-qəza bilməzsən.*

Ulu ozan sənəti ənənələrini yaşadan, onu öz naxışları ilə zənginləşdirən, aşıq şeirinin müxtəlif şəkillərində təsirli poetik nümunələr yaradan Aşıq Əsəd 27 aprel 1951-ci ildə, ömrünün 77-ci baharında dünyasını dəyişib. Sənətkarın yaradıcılığı folklorşünaslar tərəfindən araşdırılıb, şeirləri müxtəlif toplularda nəşr edilib.

**Savalan Fərəcov**

Foto-yaddaş

# Moskvanı fəth edən "Yeddi gözəl"

1959-cu ildə Moskvada Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyü keçirilmişdi. Bu, 1938-ci ildəki (aprel) dekadadan sonra ittifaq (SSRİ) miqyasında Azərbaycan mədəniyyətinin ikinci böyük təntənəsi idi.

Birinci dekada musiqi sənətimiz üçün, ilk növbədə, Üzeyir Hacıbəylinin "Koroğlu" operası və "Arşın mal alan" operettasının Moskva səhnəsində qazandığı alqışlarla əlamətdar olmuşdu. İkinci dekadada (1959-cu il 22-31 may) isə Üzeyir məktəbi yetirmələrinin – Qara Qarayevin "Yeddi gözəl" baleti, Fikrət Əmirovun "Sevil" operası, Soltan Hacıbəyovun "Gülşən" baleti və başqalarının əsərləri Moskvada uğurla nümayiş olunub.

"Yeddi gözəl" baletində əsas partiyaları Azərbaycan SSR-in Xalq artistləri Leyla Vəkilova və Konstantin Batašov (1918–1991; Tiflisdə doğulub, 1939-cu ildə Bakı Xoreoqrafiya Məktəbini bitirib, Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub) və Belarusdan balet artisti Nikolay Krasovski (1933–1989; 50-ci illərin ikinci yarısında Bakıda sənət fəaliyyəti göstərib) oynayıblar.



**Fotoda:** Moskvada, Böyük Teatrda Azərbaycan SSR incəsənəti və ədəbiyyatı ongünlüyündə Q.Qarayevin "Yeddi gözəl" baletinin nümayişi. Ön planda K.Bataşov – Mənzər, L.Vəkilova – Ayşə və N.Krasovski – Bəhram rollarında (1959)

*Azərbaycan Respublikası Kino Foto Sənədləri Arxivi (inventar N 26604)*

# ADU-da Ərəb dili auditoriyası açılıb

İyulun 4-də Azərbaycan Dillər Universitetində (ADU) Şeyx Zayed adına Ərəb dili auditoriyasının açılış mərasimi olub.



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Azərbaycandakı səfiri Məhəmməd əl-Bluşi auditoriyanın iki ölkə arasında mədəniyyət, təhsil və digər sahələr üzrə əlaqələrə töhfə olduğunu söyləyib. Bildirib ki, bu mərkəz ərəb dilini dərindən öyrənmək, BƏƏ haqqında məlumat əldə etmək istəyən gənclərin maraq məkanına çevriləcək.

Səfir auditoriyanın açılışına göstərdiyi dəstəyə görə universitetin rektoru akademik Kamal Abdullaya təşəkkürünü bildirib.

ADU-nun rektoru akademik Kamal Abdulla universitetdə Şeyx Zayed adına Ərəb dili auditoriyasının fəaliyyətə başlamasını yeni elmi və mədəni əlaqələrin təməli kimi qiymətləndirib. Qeyd edib ki, auditoriya dost ölkənin mədəniyyətini, tarixini daha dərindən öyrənmək üçün əlverişli imkanlar yaradacaq.

# "Narqız" animasiya filminin istehsalı davam etdirilir

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən 2023-cü ilin iyul-oktyabr aylarında keçirilən müsabiqədə qalib olmuş film layihələrinin dövlət dəstəyi ilə istehsalı davam edir.



Müsabiqənin 11 qalib layihəsindən biri də "Narqız" qısametrajlı animasiya filmidir. İstehsalı davam edən filmin məqsədi işğaldan azad olunmuş ərazilərdəki mina təhlükəsini uşaqların, həmçinin böyüklərin nəzərinə çatdırmaqdır.

"Peri Film" MMC (Animafilm Studio) tərəfindən istehsal olunan filmin quruluşçu rejissoru və quruluşçu rəssamı Məsud Pənahi, prodüseri Rəşid Ağamalıyev, ssenari müəllifləri Məsud Pənahi, İsmayıl İman, Nəzrin Ağamalıyeva, aparıcı animatoru Firəngiz Bağırova, storyboard rəssamı Kübra Binnətova, animatik rəssamı Rüstəm Bəşirovdur.

"Narqız" qısametrajlı animasiya filminin 2024-cü ilin sonuna kimi təhvil verilməsi planlaşdırılır.

# BSU-da tələbələrin əl işlərindən ibarət sərgi

Bakı Slavyan Universitetində (BSU) "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbirlər planına uyğun olaraq, tələbələrin əl işlərindən ibarət rəsm və foto sərgisi təşkil edilib.

Universitetdən bildirilib ki, tədbir zamanı tələbələr müəllifləri olduqları rəsm və fotolar barədə təqdimatla çıxış ediblər.

BSU-nun rektoru Anar Nağıyev sərgidə nümayiş olunan rəsm və fotoları yüksək qiymətləndirərək tələbələrə təşəkkür edib, onlara təhsildə və yaradıcılıqda yeni-yeni uğurlar arzulayıb.

Sərgidə universitetin bütün fakültələri təmsil olunub.



# "YAY" yenidən başlayır...

## "Hər şey yaxşı olacaq: sabah və ya nə vaxtsa"



İncəsənət insan hisslərini təsvir edən vasitədir. Bəzən insanlar sözlərlə ifadə edə bilmədiklərini rəsmdə təsvir edə bilirlər. Günümüzdə incəsənətə yeni texnoloji anlam gəlib. Bu müasirlik bizim xeyrimizə olduğu qədər, həm də dövrümüzün yaradıcılığını bizə təqdim edir. Bunu bizə hiss etdirməyə çalışan "YAY" qalereyası yenidən açılışını elan edir.

İyulun 5-də "YAY" qalereyasında "Hər şey yaxşı olacaq: sabah və ya nə vaxtsa" adlı qrup sərgisinin açılışı olub.

Layihənin kuratoru Zəhra Məmmədova bildirib ki, fərqli təcrübələri olan səkkiz rəssam bu sərgidə bir araya gəlib. Ekspozisiyada Rasim Babayev, Elşən Baba, Orxan Hüseynov, Tərlan Qorçu, Aida Mahmudova, Qafar Rzayev, Zamir Süleymanov və Chingizin əsərləri təqdim olunub.

Qrup sərgisinin başlıca məqsədi müəyyən "düşüncə toxumlarının" cücərməsinə sövq etmək, insanları çətin dövrlərdə incəsənətin gücünə inanmağa vadar etməkdir.

"YARAT" Müasir İncəsənət Məkanının baş kuratoru, sənətşünas Fərəh Ələkbərli "YARAT"ın təsisçisi Aida Mahmudovaya və sərgidə əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Sərgi ilə tanış olan qonaqlara burada müasir dilemmalardan tutmuş introspektiv səyahətlərə qədər geniş mövzuları araşdırmaq təklif olunur. Ekspozisiya özündə rəssam "gündəliyini" ehtiva edir. Sərgi tamaşaçıları "incəsənət, eyni zamanda, həm güzgü, həm də bir vasitədir" düşüncəsi ilə də üz-üzə qoyur.

Əsərlərdə bizim ictimai-siyasi reallığımız ilə dialoq, ruhumuza ünvanlanan və onunla danışan səmimi söhbət var. Hər bir rəssam, özünəməxsus şəkildə öz dövrünün həqiqət carçısı sayıla, bizi öz hekayələrində məna tapmağa dəvət edə bilər.

Sərgi ilə tanışlıqdan sonra sənətsevərlərə konsert proqramı da təqdim edilib.

Sərgi dekabrın 8-dək davam edəcək.

Qeyd edək ki, 2012-ci ildə yaradılmış "YAY" qalereyası İçərişəhərdə yerləşir. "YARAT" Müasir İncəsənət Məkanı tərəfindən təsis edilən qalereyanın əsas fəaliyyəti Azərbaycan və digər ölkələrdən olan istedadlı və perspektivli gənc rəssamların, tanınmış və təcrübəli sənətçilərin əsərlərindən ibarət sərgi-satış tədbirlərinin keçirilməsinə yönəlib.

"YAY" qalereyasının digər prioritetlərindən biri də fikir və təcrübə mübadiləsi platforması olaraq rəssamlar, həmçinin incəsənət sahəsində çalışan mütəxəssislər tərəfindən aparılan mühazirələr, seminarlar, habelə film nümayişləri və s. təşkil etməkdir.

# Hər bir rəsm müəllifinin zövqündən xəbər verir

## Xətai Sənət Mərkəzindən rəngli təəssürat



Xətai Sənət Mərkəzi fəaliyyətə başladığı gündən sənət həvəskarlarının ən sevimli məkanlarından birinə çevrilib. "Rəsm əsəri bir zövq göstəricisidir" devizi ilə fəaliyyət göstərən mərkəzin rəhbərliyi düşünür ki, evlərdə, ofislərdə asılan əsərlər zövq oxşamalı, nostalji hisslər yaratmalıdır. Hər bir əsərə baxanda həm rəssam, həm əsərin sahibi, həm də əldə edildiyi qalereya diqqət çəkir. Çünki qalereya rəssamla alıcı arasında vasitəçi rolunu oynayır.





Mərkəzə həm ziyarətçi, həm də alıcı kimi xarici turistlər və sənətsevərlər təşrif buyururlar. Müxtəlif sərgilərin və mədəniyyət tədbirlərinin təşkili, rəsm əsərlərinə maraq yaratmaq üçün bir sıra təşkilatlarla əlaqəli iş mərkəzə gələnlərin sayını gündən-günə artırır. Mərkəzə təşkil olunan ekskursiyalar da uşaqların estetik və bədii təfəkkürünün formalaşmasına böyük təsir göstərir.

Qədim əşya, milli suvenir, heykəl, rəsm əsəri, poster, çərçivə sifarişi, rəssamlıq ləvazimatının bir məkanda olması buranının bir sənət mərkəzi obrazını formalaşdırıb.

2008-ci ildən fəaliyyət göstərən mərkəzdə mütəmadi olaraq gənc rəssamların qrup sərgiləri, uşaq rəsm festivalları, yaradıcılıq müsabiqələri, müxtəlif mövzulu sərgilər keçirilir. Burada fəaliyyət göstərən rəsm kursları isə müxtəlif yaş qruplarında həvəskarlar üçün təkcə rəsm çəkməyi bacarmaq imkanı deyil, həm də dünya rəssamlıq nümunələri ilə tanışmaq imkanı yaradır. Mərkəzdə təşkil edilən ustad dərsləri də öz tematikası ilə fərqlənir. Uşaqlar yağlı boya, sulu boya ilə işləmək bacarıqlarını inkişaf etdirirlər.

Mərkəzin direktoru Zahid Əvəzov deyir ki, 16 illik fəaliyyəti dövründə mərkəz daim yeniliklər, maraqlı layihələr təqdim etməyə çalışır.

Burada sərgilənən əsərlər diqqəti cəlb edir. Onlar həm də satış üçün təqdim olunur. Mərkəzdəki qalereyanın zəngin fondu var və vaxtaşırı ekspozisiyadakı əsərlər yenilənir. Əsərlər ayrı-ayrı guşələrdə, mövzular üzrə qruplaşdırılıb. Bu da ziyarətçilərə rahat şəkildə əsərlərlə tanış olmaq imkanı yaradır. Miniatür əsərlərin yer aldığı guşə xüsusilə diqqəti cəlb edir. Burada təqdim olunan nümunələr miniatür rəssamlıq məktəbimiz haqqında geniş təəssürat yaradır. 30-dan çox müasir rəssamın miniatür üslubda işlədiyi əsərlərin nümayiş olunduğu sərgi tamaşaçıları sanki nağıllar dünyasına səyahətə aparır.

Beynəlxalq Sulu boya Cəmiyyətinin (IWS) Xətai Uşaq Sənəti Qalereyası da burada fəaliyyət göstərir. Qalereyada bu ilin fevral-aprel aylarında keçirilmiş "Baharın rəngləri" uşaq rəsm turnirində fərqlənən əsərlər nümayiş olunur. Zahid Əvəzov deyir ki, ekspozisiya turnirdə 10-21 yaş arası yeniyetmə və gənclərin bahar mövzusunda ərsəyə gətirdiyi əsərlər hesabına formalaşıb. Qalereyanın bədii rəhbəri rəssam-pedaqoq Gündüz Həbibov, kuratoru rəssam-pedaqoq Ədilə Qasımovadır. Müxtəlif üslub və janrlarda peşəkar müəlliflər tərəfindən yaradılmış nümunələrin yeniyetmə və gənclərin əsərləri ilə eyni məkanda təqdimatı gəncliyin yaradıcılıq həvəsini stimullaşdırmaqla yanaşı, onların sənət zövqünün zənginləşdirilməsinə də xidmət edir.

Xətai Uşaq Sənəti Qalereyasının bədii rəhbəri Gündüz Həbibov burada əsərlərin növbəli şəkildə sərgiləndiyini deyir: "Əsərlərin hər biri uşaqların öz əl əməyi və göz nuru ilə yaranan işlərdir. Əsərlər təmiz fransız kağızı üzərində işlənilib və Xətai Sənət Mərkəzi tərəfindən bütün ləvazimatlar uşaqlara təmənnasız təqdim olunub".

Günü-gündən yeniliklərə yelkən açan Xətai Sənət Mərkəzinin kollektivinə uğurlar arzulayaraq bu sehrli məkandan xoş əhval və rəngarəng duyğularla ayrılıram.

**Lalə Azəri**

## Xatirə təqvimi — 10 – 12 iyul

### Azərbaycan

**10 iyul 1909** – Azərbaycanın ilk sənədli film rejissorlarından olan Niyazi Mustafa oğlu Bədəlov (1909 – 2.11.1997) Şəkidə anadan olub. Ümumittifaq Kinematoqrafiya İnstitutunun ilk azərbaycanlı məzunlarındandır.

**10 iyul 1924** – Ədəbiyyatşünas, tərcüməçi Əkbər Ağarza oğlu Babayev (1924 – 12.9.1979) anadan olub.

**10 iyul 1930** – Xalq yazıçısı Sabir Məhəmməd oğlu Əhmədli (1930 – 17.4.2009) Cəbrayıl şəhərində doğulub. "Pillələr", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Mavi günbəz", "Gedənlərin qayıtmağı", "Dünyanın arşını", "Axirət sevdası" və s. kitabların müəllifidir. Əsərləri xarici dillərə tərcümə edilib.

**10 iyul 1937** – Əməkdar incəsənət xadimi, şairə, dramaturq Kəmalə Ağa qızı Ağayeva (1937 – 18.7.2019) Naxçıvan şəhərində anadan olub. Mənzum pyesləri ("Məhsəti", "O, bizim dağların oğludur", "Göyçək Fatma" və s.) teatrlarda tamaşaya qoyulub.

**10 iyul 1949** – Əməkdar artist İbrahim Əsgər oğlu Əliyev (1949 – 26.11.2020) Bakıda anadan olub. Filmlərdə ("Güllələnmə təxirə salınır!", "Qətl günü") çəkilib, Mədəniyyət və İncəsənət Universitetində müəllim işləyib.

**10 iyul 1953** – Əməkdar incəsənət xadimi Ələkbər Rauf oğlu Kazımovski (1953 – 19.9.2016) anadan olub. 1974-cü ildən Azərbaycan Televiziyasında işləyib, film-tamaşa və sənədli telefilmlərin rejissoru olub.

**11 iyul 1926** – Əməkdar rəssam Altay Ağasəid oğlu Səidov (1926 – 10.9.2015) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrında quruluşçu rəssam, baş rəssam işləyib, Musiqili Komediya Teatrında tamaşalara səhnə tərtibatı verib.

**11 iyul 1926** – Tarix elmləri doktoru Şövkət Əzizağa qızı Tağıyeva (1926–2015) anadan olub. Cənubi Azərbaycan və İran tarixinə dair tədqiqatların müəllifidir.

**11 iyul 1937** – Əməkdar rəssam Əkrəm Qulam oğlu Həsənzadə (1937 – 22.11.2007) anadan olub. Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Texnikumunda çalışıb. Rəssamlar İttifaqının bölmə müdiri olub.

**11 iyul 2006** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (22.11.1933 – 2006) vəfat edib. "Sən niyə susursan?", "Onun böyük ürəyi" və s. filmlərin quruluşçu operatoru olub. "Tütək səsi", "Ad günü", "İstintaq", "Ölsəm, bağışla" və s. filmlərə quruluş verib.

**11 iyul 2017** – Prezident İlham Əliyev Azərbaycanın ilk qadın opera müğənnisi, SSRİ Xalq artisti Şövkət Məmmədovanın 120 illik yubileyi haqqında sərəncam imzalayıb.

**11 iyul 2023** – Xalq rəssamı, heykəltaraş Fazil İmamverdi oğlu Nəcəfov (16.2.1935 – 2023) vəfat edib. Bəstəkar Qara Qarayevin Bakıdakı abidəsinin, "İçərişəhər qadınları", "Həyatın mərtəbələri", "Minillik insan" və s. əsərlərin müəllifidir.

**12 iyul 1911** – Böyük satirik şair, maarifçi və mütəfəkkir Mirzə Ələkbər Sabir (30.5.1862 – 1911) vəfat edib. Ölümündən sonra şeirləri "Hophopnamə" adlı topluda nəşr olunub.

**12 iyul 1940** – Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Nağı qızı Qasımova (1940 – 9.9.2022) anadan olub. Teatr və televiziya tamaşalarına, filmlərə ("Möcüzələr adası", "Alman klinikasına şəxsi səfər" və s.) musiqilər yazıb, mahnıların müəllifidir.

**12 iyul 1987** – Əməkdar mədəniyyət işçisi, aşıq Hüseyn Saraçlı (Hüseyn Qurban oğlu Həsənov; 1916–1987) vəfat edib.

**12 iyul 2017** – Prezident İlham Əliyev görkəmli teatr və kino aktyoru, Xalq artisti Ağasadıq Gəraybəylinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**10 iyul 1871** – Fransız yazıçısı Marsel Prust (Valentin Louis Georges Eugune Marcel Proust; 1871–1922) anadan olub. "İtirilmiş zamanın axtarışında" adlı silsilə əsərlərin müəllifidir.

**10 iyul 1918** – Avstraliya əsilli ingilis yazıçısı Ceyms Oldric (James Aldridge; 1918 – 23.2.2015) anadan olub. Əsərləri: "Şərəf məsələsi", "Dəniz qartalı", "Diplomat" (1940-cı illərdə Cənubi Azərbaycanda baş verən olaylar da təsvir olunub) və s.

**10 iyul 1931** – Kanada yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2013) Elis Manro (Alice Ann Munro; 1931 – 13.5.2024) anadan olub.

**11 iyul 1892** – Amerika aktyoru, kinodramaturq, "Oskar" mükafatçısı Tomas Con Mitçell (Thomas John Mitchell; 1892–1962) anadan olub.

**12 iyul 1813** – Fransız psixoloqu, eksperimental psixologiyanın banisi Klod Bernar (Claude Bernard; 1813–1878) anadan olub.

**12 iyul 1884** – İtalyan rəssamı Amadeo Modilyani (Amedeo Clemente Modigliani; 1884–1920) anadan olub. Qadın rəsmlərinin mahir ustası olub.

**12 iyul 1904** – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1971) Pablo Neruda (Pablo Neruda – Ricardo Eliezer Neftal Reyes Basoalto; 1904–1973) anadan olub.

**Hazırladı: V.Orxan**

# "Dünya ədəbiyyatı"nın növbəti sayı Çeçenistana həsr olunub




Azərbaycan Yazıçılar Birliyinin (AYB) nəşri olan "Dünya ədəbiyyatı" dərgisinin növbəti sayı Çeçenistana (Rusiya Federasiyası) həsr edilib. Nəşrdə Çeçenistanın tarixinə və bu gününə, çeçen dili və ədəbiyyatına dair məqalələr də öz əksini tapıb.

Xalq yazıçısı, akademik Kamal Abdulla "Qafqaz dağlarıtək məğrur çeçen ədəbiyyatı" adlı təqdimat yazısında qeyd edir ki, dərgidə yer alan ədəbi nümunələrdə çeçen həyatı, xalqın quruculuq və mübarizə tarixi boy göstərir: "Çeçen ədəbiyyatı mənsub olduğu xalqla eyni taleyi yaşayıb, dəfələrlə repressiyalarla üz-üzə qalıb, lakin sınmayıb, tarix səhnəsini tərk etməyib, çətinliklərdən keçərək, sınaqlardan çıxaraq öz bədii mövcudluğunu qoruyub saxlamağı bacarıb, xalqın taleyini, özünəməxsus mədəniyyətini bu günümüzə daşıyıb".

Qeyd edək ki, dərginin bu sayı AYB ilə Çeçenistan Dövlət Pedaqoji Universitetinin əməkdaşlığı çərçivəsində ərsəyə gəlib.

"Proza" bölümündə Səidbəy Arsanov, Xalid Oşayev, Səid Budayev, Məhəmməd-Salah Qadayev, Umar Qaysultanov, İsa Zakriyev, Səid-Həmzət Nunuyev, Musa Əhmədov, Əminət Tapalayeva, Asya Umarova və başqa müəlliflərin yaradıcılığından nümunələr var.

"Poeziya" bölümündə Məryəm İsayeva, Məhəmməd Mamakayev, Nurdin Muzayev, Bilal Səidov, Əhməd Süleymanov, Raisa Əhmədova, Şeyxi Arsanukayev, Yamlixan Xaspoladov, Musbəy Kibiyev, Vahid İtayev, Şahid Rəşidov, Məhəmməd Dikayev, Ömər Yariçev və digər şairlərin əsərləri verilib.

Çeçen poeziyası nümunələri Azərbaycan oxucusuna AYB-nin katibi Səlim Babullaoğlunun tərcüməsində təqdim olunub. Bədii nəsr və ədəbiyyatşünaslıq materiallarını Seyfəddin Hüseynli, Azad Yaşar, Dürdanə İbrahimova-Hüseynbəyli, Şəfiqə Şəfa, Səadət Sultan və Həmid Piriyev tərcümə ediblər.

# İfaçılarımız Özbəkistanda muğam müsabiqəsində uğur qazanıblar

Xəbər verdiyimiz kimi, 27-30 iyun tarixlərində Özbəkistanın Cizzax vilayətinin Zamin rayonunda UNESCO və ICESCO-nun himayəsi ilə II Beynəlxalq Maqom (Muğam) Sənəti Forumu keçirilib.

80-ə yaxın ölkənin təmsil olunduğu forumda Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə tanınmış incəsənət xadimləri, sənətşünas və gənc ifaçılardan ibarət nümayəndə heyəti də iştirak edib. İfaçılarımız II Beynəlxalq Maqom Sənəti Forumu çərçivəsində təşkil edilən muğam müsabiqəsinə qatılıblar.

İyunun 30-da müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi olub. Mükafatları Özbəkistanın mədəniyyət naziri




Ozodbek Nazarbekov və Cizzax vilayətinin hakimi (icra başçısı) Erqaş Saliyev təqdim ediblər.

Qeyd edək ki, müsabiqənin beynəlxalq münsiflər heyətində Azərbaycan Xalq artisti, Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi təmsil edib. Münsiflər heyətində Tacikistan, Misir, ABŞ, Hindistan, Türkiyə və Özbəkistandan mütəxəssislər yer alıb.

"Ən yaxşı muğam ifaçısı", "Ən yaxşı instrumental solo", "Ən yaxşı muğam sənəti müəllimi", "Ən yaxşı muğam təbliğatçısı", "Ən yaxşı gənc ifaçı", "Ən yaxşı muğam bəstəkarı", UNESCO, ICESCO və TÜRKSOY-un mükafatları təqdim olunub.

Müsabiqənin Qran-pri mükafatına İranın "Force" ansambılı, I yerə ansambl üzrə Özbəkistan Maqom Milli İncəsənət Mərkəzinin Yunus Rəcəbi adına "Maqom" ansamblı və solo ifa üzrə isə Tacikistan Milli Konservatoriyasının solisti Xurşid İroximzoda layiq görülüb.

Ölkəmizi təmsil edən "Vətən" muğam qrupu – Nisbət Sədrayeva, Səfalı Mirzəliyev (hər ikisi xanəndə), Ruslan Zərbəliyev (tar), Pərviz Fərhadov (kamança) və Səyavuş Kərimov (nağara) TÜRKSOY-un mükafatı ilə təltif olunub. Onlara festivalın diplomu, hədiyyələr və pul mükafatı təqdim edilib.

## Özbəkistanda qeyri-maddi mədəni irs üzrə institut yaradılır

Özbəkistanda Mədəniyyət Nazirliyi yanında qeyri-maddi mədəni irs üzrə institut yaradılır. Özbəkistan dövlət başçısının müvafiq fərmanı ilə Mədəniyyət Müəssisələrinin Fəaliyyətinin Təşkili üzrə Respublika Elmi-Metodiki Mərkəzi Mədəniyyətşünaslıq və Qeyri-Maddi Mədəni İrs Elmi-Tədqiqat İnstitutuna çevrilib.

Bildirilir ki, yeni institutun vəzifələrinə milli qeyri-maddi mədəni irsin qorunması, qeyri-maddi mədəni irs nümunələrinin müəyyən edilməsi və bu nümunələrin qeyri-maddi mədəni irsin mühafizəsi üzrə beynəlxalq siyahı və reyestrlərə daxil edilməsi, eləcə də ölkədə qeyri-maddi mədəni irsin rəqəmsallaşdırılması, təbliği və qorunmasına yönəlmiş yeni təşəbbüs və layihələrin həyata keçirilməsi daxildir.

## Teylor Sviftin şərəfinə...

### Şəhərin adını üçgünlüyə dəyişdirəcəklər



Almaniyanın Gelzenkirxen (Gelsenkirchen) şəhərinin adı bu ay ora səfər edəcək amerikalı müğənni Teylor Sviftin şərəfinə müvəqqəti olaraq dəyişdiriləcək.

Məlumata görə, Gelzenkirxen şəhəri iyulun 17-dən 19-dək super ulduz Teylor Sviftin "Eras" dünya turu çərçivəsində üç konsertə ev sahibliyi edəcək. Müğənninin konsert günlərində Rur bölgəsindəki şəhərə "Sviftkirxen" adı veriləcək.

Qeyd olunub ki, ideya bir neçə həftə əvvəl petisiya yaradaraq şəhərə Sviftkirxen adının verilməsini təklif edən yerli məktəbli qıza məxsusdur. Şəhərin meri Karin Velge ideyanı dəstəkləyib və şəhərin adının müvəqqəti olaraq dəyişdiriləcəyini bildirib. Şəhərin mərkəzində yeni adı olan lövhənin quraşdırılacağı bildirilir. Superulduzun gəlişi şərəfinə onun şərəfinə tramvay da işə salınıb. Konsertlərində yüz minlərlə tamaşaçı toplayan Teylor Sviftin Gelzenkirxenə gəlişi şəhərə böyük turist axını vəd edir.

Britaniyanın Viktoriya və Albert Muzeyində isə Teylor Sviftin London səfəri öncəsi onunla bağlı sərgi təşkil ediləcək. Muzeydə müğənninin şəxsi kolleksiyasından geyimlər, mükafatlar və uşaqlıq əşyaları nümayiş olunacaq. Sərgi iyulun 27-də açılacaq və giriş pulsuz olacaq.

Amerikalı müğənninin "Eras" dünya turu çərçivəsində Londonun "Uembli" stadionunda (Wembley Stadium) konsertləri isə 15-20 avqust tarixlərinə nəzərdə tutulub.

## Srebrenitsa soyqırımına görə indiyədək 49 nəfər məhkum edilib




Bosniya və Herseqovinanın qərbindəki Srebrenitsa şəhərində və ətraf bölgələrdə 1995-ci ildə törədilmiş soyqırımında minlərlə dinc bosniyalının ölümünə görə məsuliyyət daşıyan serb mil-lətçilərinin bu vaxtadək 4-ü ömürlük, 45-i isə müxtəlif illər üzrə həbs cəzasına məhkum edilib.

Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Haaqa Tribunalı Bosniya serbləri ordusunun sabiq komandiri Ratko Mladiçi soyqırımında, insanlıq əleyhinə cinayətlərdə, həmçinin müharibə qanunları və ənənələrini pozmaqda təqsirkar bilib və o, soyqırımı və müharibə cinayətlərinə görə 2017-ci ildə ömürlük həbs cəzasına məhkum edilib.

Bosniya serbləri ordusunun lideri Radovan Karadziç isə Srebrenitsa soyqırımı da daxil olmaqla bir çox cinayətlərə görə 40 il, daha sonra keçirilən apellyasiya şikayətində ömürlük həbs cəzasına məhkum edilib. Keçmiş serb məmurları Lyubişa Beara və Vujadin Popoviç də ömürlük həbs cəzasına məhkum olunublar.

Serbiyanın keçmiş prezidenti Slobodan Miloşeviç Srebrenitsadakı soyqırımına görə günahlandırılsa da, məhkəmə prosesi davam edərkən həbsxanada (2006) vəfat edib.

1995-ci ilin iyulunda Srebrenitsada bir neçə gün ərzində 8372 bosniyalı qətlə yetirilib, onların cəsədləri müxtəlif kütləvi məzarlıqlarda basdırılıb. 2007-ci ildə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Haaqa Tribunalı Srebrenitsa və ətrafında baş verənləri soyqırımı kimi qiymətləndirib. BMT Baş Assambleyası isə bu il mayın 23-də keçirilən sessiyada iyulun 11-ni Srebrenitsa Soyqırımını Anım Günü kimi qəbul edib.

## Tarixdə bu gün

### Olaylar, faktlar (10 – 12 iyul)

**Xronoqraf**

**11 iyul** Dünya Əhali Günüdür (World Population Day). 1987-ci ilin 11 iyulunda Yer kürəsi əhalisinin sayının 5 milyardı keçməsi ilə bağlı təsis olunub. 1989-cu ildən BMT İnkişaf Proqramının tövsiyəsi ilə qeyd olunur.

**300 il əvvəl...**

**12 iyul 1724-cü ildə** Osmanlı imperiyası ilə Rusiya arasında İstanbul müqaviləsi bağlanıb. Sənəddə Rusiya ilə Səfəvi dövləti arasında 1723-cü ilin 12 sentyabrında bağlanmış Peterburq müqaviləsinin şərtləri təsdiq edilib. Həmin müqaviləyə əsasən, Səfəvilər Dərbənddən Ənzəliyədək Xəzəryanı bölgələri Rusiyaya güzəştə getmiş, Cənubi Azərbaycanı öz əlində saxlamışdı. İstanbul müqaviləsi ilə Osmanlı dövləti də bu bölgünü qəbul edib.

**103 il əvvəl...**



**11 iyul 1921-ci ildə** Monqolustan dövlət müstəqilliyini elan edib. Bolşevik Rusiyasının hərbi köməyi ilə Çin hökmranlığına qarşı başlanan inqilab qələbə ilə nəticələnib, Monqolustanda xalq hakimiyyəti bərqərar olub. 1924-cü ildə Monqolustan Xalq Respublikasının yarandığı elan edildi. Monqolustan XVII əsrdə Çinin nəzarəti altına keçmişdi.



**84 il əvvəl...**

**10 iyul 1940-cı ildə** Fransada III Respublika süqut edib. Hitler Almaniyası ölkənin ərazisinin üçdə ikisini işğal edəndən sonra Vişi şəhərində toplaşan Fransa Milli Assambleyası səlahiyyətlərini yerə qoyub. Faşistlərin marionet lideri sayılan marşal Filipp Peten ölkənin formal rəhbəri təyin edilib.

**51 il əvvəl...**

**10 iyul 1973-cü ildə** Britaniyanın Vest-İndiadakı müstəmləkəsi olan Baham adaları (ərazisi 14 min kv.km) müstəqilliyini elan edib. 1492-ci ildə ispanlar tərəfindən kəşf edilən Baham adaları XVIII əsrin sonunda ingilislərin nəzarətinə keçmişdi. Hazırda Baham adaları dünyanın məşhur turizm və azad iqtisadi zonası hesab olunur.

**34 il əvvəl...**

**11 iyul 1990-cı ildə** erməni təxribat dəstəsi Tərtər-Kəlbəcər sərnişin avtobusunu partladıb, dinc insanları güllələbaran edib. Terror aktı nəticəsində 14 azərbaycanlı öldürülüb, 35 nəfər yaralanıb.

**31 il əvvəl...**

**12 iyul 1993-cü ildə** Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirlərinin iştirakı ilə Almatı şəhərində keçirilən toplantıda "Türk Kültür və Sənətləri Ortaq Yönətimi"nin (TÜRKSOY) yaradılması haqqında saziş imzalanıb. Sonrakı illərdə Rusiya Federasiyasının Altay, Başqırdıstan, Tatarıstan, Tıva, Xakas və Saxa-Yakut respublikaları, Moldovanın Qaqauz Yeri muxtar bölgəsi və Şimali Kipr Türk Respublikası təşkilata üzv olub. Qurum 2009-cu ildən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı adlanır.




**29 il əvvəl...**

**11 iyul 1995-ci ildə** keçmiş Yuqoslaviyanın süqutu nəticəsində meydana gələn müharibə gedişində Bosniyanın Srebrenitsa şəhərində müsəlman əhaliyə qarşı soyqırımı başlanıb. General Ratko Mladiçin başçılıq etdiyi serb qoşunları bir həftə ərzində şəhərdə 16 yaşdan yuxarı kişi əhalini – 8 mindən çox insanı qətlə yetirib. Qırğın bölgədəki BMT "sülhməramlı" kontingentinin gözü qarşısında baş verib.

**Hazırladı: V.Orxan**

## Türkiyədə "Azərbaycanın sirləri" kitabı nəşr olunub

Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamenti tərəfindən "Bir millət, iki dövlət" şüarı ilə hazırlanan "Azərbaycanın sirləri" kitabı nəşr olunub. Nəşrdə Türkiyə-Azərbaycan qardaşlığı, Qarabağ Zəfəri, Azərbaycanın dərin tarixə malik mədəniyyəti əksini tapıb. Ön sözün müəllifi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır.




Türkiyə Prezidenti nəşrdə Azərbaycanla bağlı fikirlərini belə ifadə edib: "Ana yurdu Ergenekonda dəmir dağını əridən Türkün əzmi Azərbaycanda 44 günlük Qarabağ Zəfəri ilə yenidən ortaya çıxaraq bəxtini bir daha dəyişdi. Ərazi bütövlüyünü uğurla bərpa edən Azərbaycanın yaşadığı haqlı qürur və sevinci bütün türk xalqları paylaşır. Bu Qələbə Zəngəzur dəhlizi vasitəsilə türk dövlətlərinin coğrafi bütövlüyü və qardaşlığını daha da gücləndirmək imkanı, regionda və bütün dünyada sülhün təminatı olmaq fürsətini yaradıb. Çünki güclü Türk birliyi bəşəriyyətə sülhün dayağıdır. Bir ağacın budaqları kimi türk ölkələrinin mədəni qardaşlığı ortaq bir qovluqla Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmiş çoxsaylı miraslarımızda da əks olunur...".

Qeyd olunur ki, eyni dildə danışan, tarixi, mədəniyyəti bir, 300 milyonluq çox böyük bir ailənin üzvləri olaraq inanırıq ki, əldə etdiyimiz hər uğur, çatdığımız hər məqsəddə təkcə Türkiyənin deyil, bütün türk dövlətlərinin bayrağını dalğalandırırıq. Qolunda Türkiyə bayrağı ilə yanaşı, qardaş Azərbaycanın bayrağını da kosmosun ürəyinə aparan türk astronavtımızda da bu anlayışın dərin izini gördük.

Altı fəsildən ibarət kitabda ölkələrimiz arasındakı qardaşlığın tarixi kökləri, "Bir millət, iki dövlət" şüarı, ölkələrimizin ortaq baxışı, fəaliyyəti və müqavilələri, Qarabağ Zəfəri, Şuşa Bəyannaməsi (2021), Ortaq Media Platformasının yaradılması, Azərbaycanın milli bayramları, mətbəxi, xalçaçılıq, simli alətlər, ipəkçilik kimi mədəniyyət nümunələri, tarixi abidələri və s. mövzularda məqalələr yer alıb. Azərbaycanın şanlı Zəfəri ilə nəticələnən İkinci Qarabağ müharibəsi xüsusi hazırlanmış infoqrafiklə təqdim edilib.

Azərbaycan, türk və ingilis dillərində nəşr edilən kitabda hər mövzuya dair fotoşəkillər verilib.

## Fransa sağ göstərib, sol vurdu...

Fransada iyulun 7-də keçirilən növbədənkənar parlament seçkilərinin ikinci turunun nəticələrinə görə, solçu "Yeni Xalq Cəbhəsi" koalisiyası qalib gəlib. Fransa Milli Assambleyasında (parlamentin aşağı palatası) solçuların 180 yer alacağı gözlənilir. Bu, ötən seçkilərə nisbətən 49 yer çoxdur.

Prezident Emmanuel Makronun dəstəklədiyi "Birlikdə" koalisiyasının 159 deputat mandatı (ötən seçkilərə nisbətən 86 yer az), üçüncü yeri tutan radikal sağ təmayüllü "Milli Birlik" partiyasının (lider Marin Le Pen) isə 142 mandat (ötən seçkilərə nisbətən 53 yer çox) qazandığı bildirilir.

Beləliklə, seçki kampaniyası boyunca sağ qüvvələr öndə görünsə də, nəticə fərqli olub. Qeyd edək ki, iyunun 30-da keçirilən seçkilərin birinci turunda "Milli Birlik" Partiyası Respublikaçılar Partiyasından olan müttəfiqləri ilə birlikdə 33 faiz səs toplamışdı. Həmin nəticə onlara parlamentdə təxminən 270 yer vəd edirdi. 577 yerlik Milli Assambleyada çoxluq üçün ən azı 289 mandat lazımdır. İndilik isə millətçi qüvvələr üçüncü yerlə kifayətlənməli olurlar.

Seçkilərin ən çox itirən tərəfi isə Makronun koalisiyasıdır. Prezident növbədənkənar seçkilərə getməklə sarsılmış siyasi mövqeyini (xüsusilə Avropa Parlamentinə seçkilərdə sağ qüvvələrin qələbəsindən sonra) düzəltmək istəyirdi. Sol blokun lideri Jan-Luk Melanşon Emmanuel Makronu seçkilərdə məğlubiyyətini etiraf etməyə və yeni hökumət kabinetini qurmaq vəzifəsini onlara verməyə çağırıb. Baş nazir Qabriel Attal istefa versə də, Makron onu qəbul etməyib.

Ümumilikdə isə bu seçkilərdən sonra Fransanın dərin siyasi böhrana yuvarlanacağı əksər müşahidəçilərin qənaətidir. Çünki sol, sağ və mərkəz koalisiyanın təkbaşına hökumət qurmaq imkanı yoxdur.

Seçkilərin bir diqqətçəkən faktı isə Fransanın dənizaşırı ərazisi sayılan Yeni Kaledoniyadan uzun illər sonra müstəqillik tərəfdarının Milli Assambleyada mandat qazanmasıdır. Yeni Kaledoniya (222 mindən çox seçici) Fransa parlamentində iki yerə malikdir. İlkin nəticələrə görə, 1989-cu ildə öldürülən Kanak lideri Jan-Mari Tjibaounun oğlu Emmanuel Tjibaou 1986-cı ildən bəri Milli Assambleyada qazanan ilk müstəqillik tərəfdarı olub.

Xatırladaq ki, bundan öncə Yeni Kaledoniyada həftələrlə sürən iğtişaşları nəzərə alan Makron mübahisəli seçki islahatları planının dayandırıldığını elan etmişdi. Seçki qaydalarına dəyişikliklər qəbul edilsəydi, ən azı 10 il adada yaşayan Fransa vətəndaşları yerli seçkilərdə səs verə bilərdi. Arxipelaqın sakinləri isə bunun yerli Kanak əhalisinin səsini azaldacağından narahatdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1509
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641